**Layihə**

# Bitki sağlamlığı haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 20-ci və 26-cı bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində bitki sağlamlığının təmin edilməsi məqsədilə həyata keçirilən fitosanitar nəzarət və fitosanitar xidmət fəaliyyətlərinin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını müəyyən edir, fitosanitar nəzarət və xidmət sahəsində fəaliyyət göstərən subyektlər arasındakı münasibətləri tənzimləyir.

## 1-ci fəsil

## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **bitki** - toxum və genetik material da daxil olmaqla, canlı bitkilər və onların hissələri;

1.1.2. **bitkiçilik məhsulları** – dən də daxil olmaqla, emal olunmamış bitki mənşəli məhsullar, habelə öz təbiətinə və ya emal üsuluna görə zərərli orqanizmlərin məskunlaşması və yayılması riskini yarada bilən ilkin emal olunmuş bitki mənşəli məhsullar;

1.1.3. **əkin və səpin materialı** – əkilməsi, səpilməsi, yerini dəyişməklə yenidən əkilməsi nəzərdə tutulmuş bitkilər (toxum, çilik, ting, toxmacar (toxumdan cücərən ilkin bitki), şitil, soğanaq, kök yumruları və s.);

1.1.4. **bitki mühafizəsi** – bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunması, habelə zərərli orqanizmlərin yeni ərazilərə keçməsinin, yayılmasının və kütləvi çoxalmasının qarşısının alınması, populyasiyasının tənzimlənməsi və ya məhv edilməsi məqsədilə həyata keçirilən kompleks elmi və təcrübi tədbirlər sistemi, o cümlədən fitosanitar monitorinqlərin aparılması, zərərli orqanizmlərin yayılma vəziyyətinin və arealının müəyyənləşdirilməsi, mübarizə tədbirlərinin aparılması, karantin tətbiq edilən zərərli orqanizmlərin müəyyən edilməsi, ərazilərdə karantin elan edilməsi və ləğv edilməsi, böhran vəziyyətlərinin idarə edilməsi;

1.1.5. **bitki karantini** – karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və ya yayılmasının qarşısının alınması və ya onlara qarşı rəsmi nəzarəti təmin etmək istiqamətində həyata keçirilən fəaliyyətlər, o cümlədən idxal, ixrac və tranzit nəzarəti, fitosanitar sertifikatlaşma, bitkiçilik obyektlərinin qeydiyyatı, ilkin istehsal,istehsal və ilkin emal sahələrinə nəzarət;

1.1.6. **bitki sağlamlığı** – həyata keçirilən bitki mühafizəsi və bitki karantini tədbirləri hesabına bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunması və ya azad edilməsi;

1.1.7. **karantin** - yoxlama, monitorinq, sınaq, zərərsizləşdirmə, müşahidə və tədqiqat üçün karantin nəzarətində olan material və obyektlərin, zərərli və faydalı canlı orqanizmlərin rəsmi nəzarətə cəlb edilməsi;

1.1.8. **fitosanitar nəzarət** – tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının və ya yayılmasının qarşısının alınması, habelə onların ölkə iqtisadiyyatına vurduğu ziyanın minimuma endirilməsi məqsədilə karantin nəzarətində

olan material və obyektlərdə bitki karantini və mühafizəsi tədbirlərinin, habelə bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalı (emalı), saxlanması, dövriyyəsi və istifadəsi, fitosanitar xidmətlərin göstərilməsi sahəsində nəzarət tədbirlərinin həyata keçirilməsi;

1.1.9. **fitosanitar xidmət** – fiziki və hüquqi şəxslərə, habelə dövlət və yerli özünüidarəetmə orqanlarına bitki, bitkiçilik məhsullarında və digər karantin nəzarətində olan materiallarda, kənd təsərrüfatı sahələrində, meşə sahələrində, vətəndaşlara məxsus bağ sahələrində, xüsusi mühafizə olunan təbiət ərazilərində, kənd təsərrüfatına aid olmayan torpaqlarda fitosanitar müşahidələrin aparılması, zərərli orqanizmlərin təyini və əmələgəlmə səbəblərinin, aparılacaq mübarizə üsullarının müəyyənləşdirilməsi, karantin tətbiq edilən və digər zərərli orqanizmlərin zərərsizləşdirilməsi tədbirlərinin həyata keçirilməsi, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istifadəsi, saxlanılması və daşınması sahəsində xidmətlərin göstərilməsi;

1.1.10. **fitosanitar monitorinq** – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ölkə ərazisində zərərli orqanizmlərin mövcud olub-olmamasını, yaxud yayılma arealını və ya xüsusiyyətlərini müəyyən etmək məqsədilə müxtəlif mənbələrdən, o cümlədən fitosanitar müşahidələrdən əldə edilən məlumatların toplanması və təhlili, habelə bitki və bitkiçilik məhsullarında, torpaqlarda, meşə sahələrində, xüsusi mühafizə olunan təbiət ərazilərində, vətəndaşlara məxsus bağ sahələrində, yaşayış sahələrində, binalarda, obyektlərdə fitosanitar baxışın keçirilməsi, laborator sınaqlar üçün nümunələrin götürülməsi və sınağı proseslərinin məcmusu;

1.1.11. **fitosanitar müşahidə** – hüquqi və fiziki şəxslərin, dövlət və özünüidarəetmə orqanlarının, habelə fitosanitar nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında fitosanitar xidməti həyata keçirən subyektlər tərəfindən hər hansı ərazidə zərərli orqanizmlərin mövcudluğunu, yaxud yayılma arealını və ya xüsusiyyətlərini müəyyən etmək üçün konkret dövr ərzində fitosanitar baxışın keçirilməsi və laborator sınaqlar üçün məhsullardan nümunələrin götürülməsi proseslərinin məcmusu;

1.1.12. **fitosanitar baxış** – zərərli orqanizmlərin mövcudluğunun və xüsusiyyətinin müəyyən edilməsi məqsədilə karantin nəzarətində olan materiallara və obyektlərə fitosanitar mütəxəssislər tərəfindən vizual və ya müxtəlif texniki vasitələrdən istifadə etməklə baxışın həyata keçirilməsi;

1.1.13. **zərərsizləşdirmə** – zərərli orqanizmlərin məhv edilməsi, inaktivləşdirilməsi, kənarlaşdırılması, təmizlənməsi və ya sterilləşdirilməsi, habelə zərərli bitkilərin və onların hissələrinin məhv edilməsi üzrə həyata keçirilən proses;

1.1.14. **zərərli orqanizm** – bitkilərə və bitkiçilik məhsullarına zərər vuran heyvanların, bitkilərin və ya xəstəlik törədən mikroorqanizmlərin hər hansı növü, növün dəyişmiş forması, ştammı və ya bioloji tipi;

1.1.15. **tənzimlənən zərərli orqanizm** – karantin tətbiq edilən zərərli orqanizm və tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizm;

1.1.16. **karantin tətbiq edilən zərərli orqanizm** – ərazidə mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş, ətraf mühitə və ərazinin iqtisadiyyatına potensial təhlükə yaradan zərərli orqanizm;

1.1.17. **tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizm** – əkin və səpin materialında mövcud olduqda həmin materiallardan istifadə etməklə əldə edilən bitkilərə və bitkiçilik məhsullarına iqtisadi ziyan vuran və bu səbəbdən əkin və səpin materiallarının idxal zamanı tənzimlənən zərərli orqanizm;

1.1.18. **xüsusi təhlükəli zərərli orqanizm** – bitki və bitkiçilik məhsulları üçün davamlı olaraq potensial təhlükə yaradan, kütləvi çoxalması və yayılması zamanı əhəmiyyətli məhsul itkisinə və məhsulun keyfiyyətinin pisləşməsinə səbəb olan zərərli orqanizm;

1.1.19. **karantin nəzarətində olan material** – zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, fitosanitar tədbirlərin aparılmasını tələb edən (xüsusilə beynəlxalq yükdaşımalar zamanı) bitki və bitkiçilik

məhsulları, əkin və səpin materialları, taxta qablaşdırma materialı, yük, istifadə olunmuş avadanlıqlar, nəqliyyat vasitələri, torpaq, torf, kompost, orqanik gübrələr, zərərli orqanizm;

1.1.20. **karantin nəzarətində olan obyektlər (bundan sonra – obyektlər)** – zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, fitosanitar tədbirlərin aparılmasını tələb edən bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının ilkin istehsalı, istehsalı, ilkin emalı, saxlanması, satışı, zərərsizləşdirilməsi, utilizasiyası və məhv edilməsi yerləri, bununla əlaqəli obyektlər, tikililər, konteynerlər, nəqliyyat vasitələri

1.1.21. **bitkiçilik subyektləri** – bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının, ağac əsaslı qablaşdırma materiallarının bazara yerləşdirilməsi məqsədilə ilkin istehsalı (o cümlədən əkini, becərilməsi, çoxaldılması), istehsalı (o cümlədən təmizlənməsi, bükülməsi, doğranması, parçalanması, dilimlənməsi, cilalanması, üyüdülməsi, soyudulması, dondurulması, qablaşdırılması, etiketlənməsi), ilkin emalı, dövriyyəsi (saxlanması, daşınması, idxalı, ixracı və satışı), zərərsizləşdirilməsi, utilizasiyası və zərərsizləşdirilməsi, habelə zərərli orqanizmlərin Azərbaycan Respublikasına idxalı, ölkə ərazisi daxilində daşınması, saxlanması, çoxaldılması fəaliyyətlərini həyata keçirən hüquqi və fiziki şəxslər, bələdiyyələr, dövlət orqanları (qurumları);

1.1.22. **karantin nəzarətində olan materialların bazara yerləşdirilməsi** – bitki və bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların kommersiya və qeyri-kommersiya məqsədilə satışı və ya hər hansı formada ötürülməsi (barteri, ianəsi), satış üçün saxlanması və paylanması, o cümlədən gömrük rəsmiləşdirilməsindən sonra sərbəst dövriyyəyə buraxılması;

1.1.23. **zərərli orqanizmin risk təhlili** – zərərli orqanizmin tənzimlənməsinin zəruriliyinin və ona qarşı adekvat fitosanitar tədbirlərin müəyyənləşdirilməsi məqsədilə bioloji, coğrafi və ya digər elmi və iqtisadi məlumatların qiymətləndirilməsi və risklərin idarəolunması prosesi;

1.1.24. **zərərli orqanizmdən azad istehsal sahəsi** – zərərli orqanizmin olmamasının elmi cəhətdən sübut olunduğu və müəyyən dövr üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi tanıdığı və uçota aldığı istehsal sahəsi;

1.1.25. **zərərli orqanizmdən azad istehsal yeri** – zərərli orqanizmin olmamasının elmi cəhətdən sübut olunduğu və müəyyən dövr üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi tanıdığı və uçota aldığı istehsal sahəsinin bir hissəsi;

1.1.26. **zərərli orqanizmdən azad zona** – zərərli orqanizmin olmamasının elmi cəhətdən sübut olunduğu və müəyyən dövr üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi tanıdığı və uçota aldığı ərazi;

1.1.27. **fitosanitar sertifikatı** – “Bitki mühafizəsi haqqında” Beynəlxalq Konvensiyaya uyğun olaraq nümunəvi forma əsasında hazırlanmış və idxalçı ölkələrin fitosanitar tələblərinə uyğunluğunu təsdiq edən rəsmi sənəd və ya onun elektron ekvivalenti;

1.1.28. **daxili karantin aktı** – Azərbaycan Respublikasının ərazisində bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının bir ərazidən digər əraziyə daşınması zamanı zərərli orqanizmlərin yayılmasının qarşısının alınması məqsədilə verilən və yükün zərərli orqanizmdən azad olmasını təsdiq edən rəsmi sənəd və ya onun elektron ekvivalenti;

1.1.29. **partiya** – eyni istehsal növbəsində və yerdə ilkin istehsal, istehsal və ya ilkin emal olunan, qablaşdırılan, tərkibi, mənşəyi və digər xüsusiyyətlərinə görə eyniləşdirilə bilən, yükün bir hissəsini təşkil edən məhsulların bir qrupu və ya dəsti;

1.1.30. **yük** – bir ərazidən digər əraziyə daşınan, idxalçı ölkə tərəfindən tələb olunduğu halda fitosanitar sertifikatla və ya daxili karantin aktı ilə müşayiət edilən və təyin

edilmiş miqdarda çəkisi olan bitki, bitkiçilik məhsulları və ya karantin nəzarətində olan digər materiallar;

1.1.31. **pestisid** – zərərli orqanizmlərə qarşı mübarizə məqsədilə istifadə edilən, tərkibində aktiv maddələr, neytrallaşdırıcı maddələr (antidotlar) və sinergistlər olan zəhərli kimyəvi maddələr və bioloji orqanizmlər, həmçinin yığımdan öncə yarpaqların tökülməsi üçün istifadə edilən vasitələr;

1.1.32. **bitki mühafizə vasitələri** – bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunması və ya azad edilməsi, zərərli bitkilərin və onların hissələrinin məhv edilməsi, bitkilərin boy artımının sürətləndirilməsi və ya tənzimlənməsi məqsədilə istifadə olunan pestisidlər, canlı faydalı orqanizmlər, bitkilərin boy artımı stimulyatorları, feromonlar və texniki vasitələr;

1.1.33. **aktiv maddələr** – zərərli orqanizmlərlə mübarizə üçün təsirli olan, bitkilərin inkişafına müsbət təsir göstərən bitki mühafizə vasitələrinin tərkib hissəsi olan bioloji və kimyəvi maddələr, o cümlədən mikroorqanizmlər, bitki ekstraktları və feromonlar;

1.1.34. **neytrallaşdırıcı vasitələr (antidotlar)** – bitki mühafizə vasitələrinin bəzi bitkilərə fitotoksiki təsirinin aradan qaldırılması və ya azaldılması üçün bitki mühafizə vasitələrinə əlavə olunan maddələr və ya preparatlar;

1.1.35. **sinergistlər (aktivatorlar)** – pestisidlərin zərərli orqanizmlərə qarşı təsirini daha da gücləndirən maddələr;

1.1.36. **koformulyantlar** – bitki mühafizə vasitələrində onların səmərəliliyini artırmaq məqsədilə istifadə olunan aktiv maddələr, neytrallaşdırıcı vasitələr və sinergistlər olmayan köməkçi maddələr;

1.1.37. **mikroorqanizmlər** – hüceyrəvi və ya qeyri-hüceyrəvi quruluşa malik göbələklər və viruslar daxil olmaqla, genetik materialın təkrarlanması və ya ötürülməsi qabiliyyətinə malik hər hansı mikroskopik ölçülü orqanizm;

1.1.38. **gübrə** – bir və ya bir neçə kimyəvi elementdən ibarət olan və tərkib hissələrinə görə torpağın münbitliyinin artırılması, bitkilərin məhsuldarlığının yüksəldilməsi üçün istifadə olunan maddələr, habelə bitkilərin böyüməsi və inkişafını sürətləndirən, yaxud da torpaqda mikrobioloji proseslərin bərpası, aktivləşdirilməsi və tənzimlənməsi üçün istifadə olunan mikroorqanizmlər;

1.1.39. **aqrokimyəvi maddələr** – torpaqların münbitliyinin artırılması, bitkilərin məhsuldarlığının yüksəldilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün tətbiq edilən üzvi, mineral və mikrobioloji gübrələr, kimyəvi meliorantlar;

1.1.40. **peşəkar istifadəçi** – öz peşə fəaliyyətində bitki və bitkiçilik məhsullarına zərər vuran orqanizmlərlə mübarizə məqsədilə xüsusi təhlükəli və təhlükəli bitki mühafizə vasitələrindən istifadə edən və bu Qanunda nəzərdə tutulmuş qaydada sertifikat əldə etmiş şəxs, o cümlədən operator, texnik, bitki mühafizəsi mütəxəssisi, aqronom və s.;

1.1.41. **qeyri-peşəkar istifadəçi** – öz qeyri-peşə fəaliyyəti çərçivəsində bu Qanuna əsasən dövlət qeydiyyatına alınarkən peşəkar istifadə üçün nəzərdə tutulmamış (aşağı toksiklik dərəcəsinə malik olan) bitki mühafizə vasitələrindən istifadə edən şəxs;

1.1.42. **bitki mühafizə vasitəsinin istehsalçısı** – bitki mühafizə vasitələrini, habelə aktiv maddələri, neytrallaşdırıcı vasitələri (antidotları), sinergistləri, koformulyantları istehsal edən, bu Qanuna əsasən qeydiyyata düşmüş şəxs;

1.1.43. **bitki mühafizəsi üzrə məsləhətçi (bundan sonra – məsləhətçi)** – bitkiçilik subyektlərinə zərərli orqanizmlərlə mübarizə üçün bitki mühafizə vasitələrinin düzgün və təhlükəsiz istifadəsi üzrə məsləhətlər verən və belə məsləhətlər vermək üçün bu Qanunda nəzərdə tutulmuş qaydada təlimlərdən keçmiş şəxs;

1.1.44. **bitki mühafizə vasitəsinin satıcısı** – bitki mühafizə vasitələrini peşəkar və qeyri-peşəkar istifadəçilərə satan, bu Qanunda nəzərdə tutulmuş qaydada təlimlərdən keçmiş şəxs;

1.1.45. **bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin utilizasiyası** – bitki sağlamlığı sahəsində mövcud olan tələblərə cavab verməyən bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin ilkin nəzərdə tutulmuş təyinatından başqa bir

təyinat üçün istifadə etmək məqsədilə texnoloji emalı, təkrar etiketlənməsi, yaxud digər məqsədlərlə istifadəsi;

1.1.46. **fumiqasiya** – bitkiçilik məhsullarında zərərli orqanizmlərin buxar və qaz halında olan kimyəvi maddələrlə zərərsizləşdirilməsi;

1.1.47. **istiliklə zərərsizləşdirmə** – bitkiçilik məhsullarını fitosanitar norma və qaydalarla müəyyən edilmiş yüksək temperatur həddində və müddətdə isitməklə müvafiq zərərli orqanizmin məhv edilməsi prosesi;

1.1.48. **soyuq mühitdə zərərsizləşdirmə** – bitkiçilik məhsullarını fitosanitar norma və qaydalarla müəyyən edilmiş aşağı temperatur həddində və müddətdə soyutmaqla müvafiq zərərli orqanizmin məhv edilməsi prosesi;

1.1.49. **modifikasiya edilmiş atmosferdə zərərsizləşdirilmə** – bitkiçilik məhsullarını fitosanitar norma və qaydalarla müəyyən edilmiş tələblərə uyğun olaraq karbon dioksidin artırıldığı və oksigenin azaldıldığı mühitdə saxlamaqla müvafiq zərərli orqanizmin məhv edilməsi prosesi;

1.1.50. **taxta qablaşdırma materialı** – bitki və bitkiçilik məhsulları partiyasının yığılması, saxlanması, qorunması və daşınması üçün istifadə olunan taxta və digər ağac əsaslı materiallar (o cümlədən bərkidici detallar);

1.1.51. **böhran vəziyyəti** – karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin kütləvi çoxalması və yayılması nəticəsində əsas kənd təsərrüfatı bitkilərinin məhsulunun əhəmiyyətli dərəcədə azalması, qiymətli ağac növlərinin zərər görməsi və məhvi ilə bağlı ciddi iqtisadi itkilərlə nəticələnə bilən, ətraf mühit üçün potensial təhlükəyə səbəb olan müəyyən bir ərazidə yaranmış vəziyyət;

1.1.52. **zərərli orqanizmlərə qarşı inteqrir mübarizə tədbirləri** – bitki mühafizə vasitələrindən iqtisadi və ekoloji cəhətdən əsaslandırılmış həddə istifadə etməklə (və ya istifadə etməməklə) ətraf mühitə və insan sağlamlığına daha az risk yaradan üsulları seçərək zərərli orqanizmin yayılmasının qarşısının alınması və ya azaldılması məqsədilə eyni anda müxtəlif mübarizə üsullarının tətbiqi;

1.1.53. **fitosanitar tədbirlər** – zərərli orqanizmlərin daxil olmasının, məskunlaşmasının, yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən bitki karantini və bitki mühafizəsi tədbirləri.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

**Maddə 2. Bitki sağlamlığı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Bitki sağlamlığı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, “Qida təhlükəsizliyi haqqında”, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunlardan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 3. Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanun Azərbaycan Respublikasında ilkin istehsal, istehsal və ilkin emal edilən, Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bitki və bitkiçilik məhsullarına, əkin və səpin materiallarına, habelə onların ilkin istehsalı, istehsalı, ilkin emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinə şamil olunur.

3.2. Bu Qanun karantin nəzarətində olan digər materiallara və obyektlərə şamil olunur.

3.3. Bu Qanun bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrə, habelə onların istehsalı, emalı, saxlanması, daşınması, idxalı, ixracı, satışı, istifadəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinə şamil edilir.

3.4. Ələt azad iqtisadi zonasında karantin nəzarətində olan materiallar və obyektlərdə bitki sağlamlığının təmin edilməsi ilə bağlı münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

## 2-ci fəsil

## Bitki sağlamlığı sahəsində dövlət tənzimlənməsi

### Maddə 4. Bitki sağlamlığı sahəsində dövlət tənzimlənməsinin məqsədi

4.1. Bitki sağlamlığı sahəsində dövlət tənzimlənməsinin məqsədləri aşağıdakılardır:

4.1.1. Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması, ölkə daxilində bitki sağlamlığının qorunması;

4.1.2. bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin təsirindən məhsul itkilərinin minimumlaşdırılması və məhsuldarlığın artırılması;

4.1.3. bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların beynəlxalq ticarəti üçün əlverişli şəraitin yaradılması;

4.1.4. bitki sağlamlığı sahəsində bitkiçilik subyektlərinin, əhalinin maarifləndirilməsi, onlara metodiki köməklik göstərilməsi;

4.1.5. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istifadəsi zamanı bitkilər üçün zərərli olan orqanizmlərlə effektiv mübarizəyə və kənd təsərrüfatında məhsuldarlığın artımına nail olmaqla yanaşı, həmin məhsulların insan və heyvan sağlamlığına, ətraf mühitə və biomüxtəlifliyə mənfi təsirlərinin qarşısının alınması.

### Maddə 5. Bitki sağlamlığı sahəsində dövlətin vəzifələri

5.1. Bitki sağlamlığı sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

5.1.1. bitki sağlamlığı sahəsində dövlət siyasətinin formalaşdırılması və dövlət tənzimləməsinin, o cümlədən bitki sağlamlığı sahəsində normativ tənzimləmənin həyata keçirilməsi;

5.1.2. bitki sağlamlığı sahəsində dövlət nəzarətinin planlaşdırılması və həyata keçirilməsi;

5.1.3. bitki sağlamlığı sahəsində monitorinqlərin aparılması və ölkə ərazisində tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin mövcudluğunun və yayılma arealının müəyyənləşdirilməsi;

5.1.4. bitki sağlamlığının təmin olunması məqsədilə dövlət proqramlarının, strategiyaların hazırlanması və həyata keçirilməsi;

5.1.5. elmi, ekoloji və iqtisadi cəhətdən əsaslandırılmış bitki karantini və bitki mühafizəsi tədbirlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi;

5.1.6. bitki sağlamlığı sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi;

5.1.7. bitki sağlamlığı sahəsində elmi-əsaslı risk təhlilinin həyata keçirilməsi və idarə edilməsi;

5.1.8. dövlət fitosanitar xidmətinin təşkili və qeyri-dövlət fitosanitar xidmətinin göstərilməsinə dövlət nəzarətinin həyata keçirilməsi;

5.1.9. bitki mühafizə vasitələrinin tərkibində olan aktiv maddələrin, sinergistlərin və neytrallaşdırıcı vasitələrin (antidotların) siyahısının təsdiq edilməsi;

5.1.10. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması;

5.1.11. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalına, emalına, qablaşdırılmasına, daşınmasına, saxlanmasına, satışına, istifadəsinə, utilizasiyasına və məhv edilməsinə dair fitosanitar norma və qaydaların, metodiki təlimatların hazırlanması və təsdiq edilməsi;

5.1.12. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalına, emalına, idxalına, ixracına, saxlanmasına, daşınmasına, satışına, istifadəsinə, utilizasiyasına və məhv edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi;

5.1.13. fitosanitar nəzarətinə aid malların (karantin nəzarətində olan materialların, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin) xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısının müəyyən edilməsi.

**Maddə 6. Fitosanitar norma və qaydaların hazırlanması və qəbulu**

6.1. Bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının ilkin istehsalı, istehsalı, ilkin emalı, dövriyyəsi (saxlanması, daşınması, idxalı, ixracı, satışı da daxil olmaqla), utilizasiyası və məhv edilməsi proseslərində zərərli orqanizmlərin daxil olması və yayılması ilə bağlı, habelə bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin təhlükəsizliyinə və minimum keyfiyyətinə və onların istehsalı, ilkin emalı, dövriyyəsi və utilizasiyası, məhv edilməsi proseslərinə dair tələblər, o cümlədən fitosanitar nəzarətin və xidmətin təşkilinə dair texniki tələblər fitosanitar norma və qaydaları ilə müəyyən edilir.

6.2. Fitosanitar norma və qaydalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunla müəyyən olunmuş tələblər nəzərə alınmaqla hazırlanır və qəbul edilir.

6.3. Fitosanitar norma və qaydalar bu Qanunun 6.4-cü maddəsində göstərilən hal istisna olmaqla, müvafiq beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş beynəlxalq standartlar, təlimatlar və tövsiyələr əsasında hazırlanır.

6.4. Beynəlxalq standart, təlimat və tövsiyələrin Azərbaycan Respublikasının fitosanitar xüsusiyyətlərinə görə, habelə xəstəliklərin yayılması səbəbindən fitosanitar mühafizənin zəruri səviyyəsini təmin etmək üçün qənaətbəxş hesab edilməməsinə və ya fitosanitar mühafizənin daha yüksək səviyyəsinin təmin edilməsi zərurətinə dair elmi sübutlar varsa, fitosanitar norma və qaydalar həmin beynəlxalq standart, təlimat və tövsiyələrin tələblərindən fərqli tələblər müəyyən edə bilər.

6.5. Beynəlxalq standart, təlimat və tövsiyələr mövcud olmadıqda və ya fitosanitar mühafizənin zəruri səviyyəsini təmin etmək üçün qənaətbəxş hesab edilməməsi səbəbindən həmin beynəlxalq standart, təlimat və tövsiyələrdən istifadə olunmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fitosanitar norma və qaydalar hazırlayarkən mövcud elmi sübutları nəzərə almaqla, risklərin qiymətləndirilməsini aparır və fitosanitar norma və qaydalar hazırlanarkən risklərin qiymətləndirilməsinin nəticələrini nəzərə alır.

6.6. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, həmin müqavilələrə üzv olan ölkələrə bitki sağlamlığı sahəsində hazırlanan yeni fitosanitar norma və qaydalar haqqında bildiriş aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) məlumat və bildiriş mərkəzi vasitəsilə göndərilir:

6.6.1. fitosanitar norma və qaydalar mövcud olan müvafiq beynəlxalq standartlara, təlimatlara, tövsiyələrə uyğun olmadıqda;

6.6.2. fitosanitar norma və qaydaların hazırlanmasında istifadə etmək üçün müvafiq beynəlxalq standartlar, təlimatlar, tövsiyələr mövcud olmadıqda;

6.6.3. hazırlanan fitosanitar norma və qaydalar ticarət tərəfdaşlarının ixrac imkanlarına təsir etdikdə.

6.7. Hər hansı xarici və yerli bitkiçilik subyektinin və ya Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşının müraciətinə əsasən, məlumat və bildiriş mərkəzi fitosanitar nəzarət sahəsində aşağıdakılara dair məlumatın ödənişsiz olaraq verilməsini təmin edir:

6.7.1. fitosanitar norma və qaydalar və ya onların layihələri;

6.7.2. fitosanitar nəzarət prosedurları, qeydiyyat və sertifikatlaşdırma qaydaları;

6.7.3. zərərli orqanizmlərin risk təhlilinə dair məlumatlar.

6.8. Bu Qanunun 6.7-ci maddəsində nəzərdə tutulmuş məlumatlar xarici subyektlərə və ya Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş dillərdən birində verilir.

6.9. Fitosanitar norma və qaydalar hazırlanarkən onların xarici ticarəti fitosanitar mühafizənin zəruri səviyyəsini təmin etmək üçün tələb olunan həddən artıq məhdudlaşdırmaması və bitkiçilik subyektlərinin fəaliyyətinə əsassız maneə yaratmaması nəzərə alınmalıdır.

6.10. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı olan ölkənin fitosanitar norma və qaydalarının Azərbaycan Respublikasında tələb edilən fitosanitar mühafizənin eyni və ya daha yüksək səviyyəsini təmin etdiyi müəyyən edilərsə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu halda, bu cür norma və qaydaların Azərbaycan Respublikasında tətbiq edilən eyni norma və qaydalara ekvivalentliyi tanınır.

**Maddə 7. Bitki sağlamlığının təmin edilməsi sahəsində həyata keçirilən fitosanitar tədbirlər**

7.1. Azərbaycan Respublikasının ərazisində bitki və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunmasını və ya azad edilməsini təmin etmək məqsədilə fitosanitar nəzarət və fitosanitar xidmət tədbirləri (fitosanitar tədbirlər) həyata keçirilir.

7.2. Fitosanitar nəzarət tədbirləri müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

7.3. Fitosanitar nəzarət tədbirlərinin əhatə dairəsinə aşağıdakılar daxildir:

7.3.1. bitki sağlamlığı sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinin formalaşdırılması və dövlət tənzimləməsinin həyata keçirilməsi;

7.3.2. Azərbaycan Respublikasının ərazisində bitkilərin və bitkiçilik məhsullarının zərərli orqanizmlərdən qorunması məqsədilə aşağıdakı bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi:

7.3.2.1. karantin tətbiq edilən zərərli orqanizmlərin Azərbaycan Respublikasında mövcudluğunun müəyyən edilməsi üçün fitosanitar monitorinqlər aparmaq;

7.3.2.2. aşkar edilmiş zərərli orqanizmlərin laborator sınaqlar əsasında növünü təyin etmək (identifikasiya etmək), sirayətlənmə mənbəyini, səviyyəsini, səbəblərini və yayılma vəziyyətini (statusunu) müəyyən etmək;

7.3.2.3. zərərli orqanizmlərə dair əldə edilmiş məlumatlara əsasən, Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış, tənzimlənən karantin tətbiq

edilməyən və xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısını hazırlamaq və mütəmadi yeniləmək;

7.3.2.4. ölkə ərazisində karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin mövcudluğu təsdiq edildikdə, onlarla mübarizə aparılması məqsədilə həmin ərazidə karantin elan olunması və ya karantin tətbiq edilməsi üçün səbəb olan hallar aradan qaldırıldıqda onun ləğv edilməsi;

7.3.2.5. karantin elan edilmiş ərazilərdə məhdudiyyətləri və əlavə fitosanitar tələbləri müəyyənləşdirmək və icrasına nəzarət etmək;

7.3.2.6. zərərli orqanizmlərdən azad zonaları, azad istehsal sahələrini və azad istehsal yerlərini müəyyən etmək və rəsmi elan etmək.

7.3.3. Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən karantin tətbiq edilən və tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq üçün aşağıdakı bitki karantini tədbirlərinin həyata keçirilməsi:

7.3.3.1. hüquqi və fiziki şəxslər tərəfindən bitki sağlamlığı qanunvericiliyinin tələblərinə əməl olunmasına nəzarət etmək;

7.3.3.2. bitki və bitkiçilik məhsullarının ilkin istehsalı, istehsalı, yığılması, tədarükü, saxlanması, daşınması və satışı zamanı fitosanitar normalara əməl edilməsinə nəzarətin təşkili, bu məqsədlə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq yoxlamalar aparmaq;

7.3.3.3. bitkiçilik subyektlərinin, bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin istehsalı, emalı və dövriyyəsi ilə məşğul olan subyektlərin qeydiyyatını aparmaq;

7.3.3.4. Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq məqsədilə idxal olunmuş karantin nəzarətində olan materiallarda fitosanitar nəzarət tədbirlərini aparmaq, onlara fitosanitar baxışı keçirmək və laboratoriya ekspertizasını aparmaq, bu Qanunda nəzərdə tutulan idxal icazələrini vermək;

7.3.3.5. idxal olunmuş karantin nəzarətində olan materiallarda tənzimlənən zərərli orqanizmlər aşkarlandıqda, onların idxalının qarşısının alınması, geri qaytarılması, utilizasiyası, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı icrası məcburi olan fitosanitar tədbirləri müəyyən etmək və həyata keçirmək;

7.3.3.6. ixracatçı ölkələrdə karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin yayılması səbəbindən bitki və bitkiçilik məhsullarının ayrı-ayrı istehsalçılardan, müəyyən regionlardan və ya bütövlükdə həmin ölkələrdən respublikaya gətirilməsini qadağan etmək və ya məhdudlaşdırmaq;

7.3.3.7. ixracı nəzərdə tutulan bitki və bitkiçilik məhsullarının ilkin istehsal və istehsal yerlərində fitosanitar monitorinqlər aparmaq, həmin yerlərdə idxalçı ölkələrdə karantin tətbiq edilən zərərli orqanizmlərin mövcud olması təsbit edildikdə, ixrac məhdudiyyətləri tətbiq etmək və ya aradan qaldırmaq;

7.3.3.8. ixracı nəzərdə tutulan bitki və bitkiçilik məhsullarından ibarət yüklərə və partiyalara idxalçı ölkələrin tələbləri nəzərə alınmaqla fitosanitar baxışı keçirmək, laborator sınaqlar aparmaq və beynəlxalq standartların tələblərinə uyğun fitosanitar sertifikatlaşdırmanı həyata keçirmək.

7.3.4. yoxlamalar, qiymətləndirmələr, fitosanitar monitorinqlər və müşahidələr zamanı götürülmüş nümunələrin laborator sınaqlarını və ekspertizasını həyata keçirmək;

7.3.5. bitki mühafizə vasitələrinin tərkibində olan aktiv maddələrin, sinergistlərin və neytrallaşdırıcı vasitələrin (antidotların) siyahısını təsdiq etmək;

7.3.6. bitki mühafizə vasitələrini və aqrokimyəvi maddələri dövlət qeydiyyatına almaq və dövlət reyestrini aparmaq;

7.3.7. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalına, idxalına və ixracına (dövlət sərhədindən buraxılış məntəqələrində istisna olmaqla), saxlanmasına, satışına, tətbiqinə, həmçinin bütün növ bitkiçilik məhsullarında, yem məhsullarında və torpaqda qalıq miqdarına nəzarət etmək;

7.3.8. istifadə müddəti bitmiş bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qalıqlarının istifadəyə yararlılığının müəyyənləşdirilməsi məqsədilə laborator sınaqlara cəlb olunmasına və sınaq nəticələrinə uyğun istifadəsinə və ya utilizasiya və məhv edilməsinə dair qərarlar vermək;

7.3.9. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin dövriyyəsinin bütün mərhələlərində onların keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirmək;

7.3.10. dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına alınmış bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin, onların ehtiyatı da nəzərə alınmaqla bölgüsünə, saxlanmasına və istifadəsinə nəzarət etmək;

7.3.11. dövlət və qeyri-dövlət fitosanitar xidmətlərinə, o cümlədən bitki mühafizə vasitələrinin istifadəsi üzrə xidmətlərə nəzarət etmək, qeyri-dövlət fitosanitar xidmət subyektlərinin dövlət qeydiyyatını aparmaq.

7.4. Bu Qanunun 7.3.2.1-ci, 7.3.2.3-7.3.2.5-ci və 7.3.10-cu maddələrində nəzərdə tutulmuş tədbirlər Azərbaycan Respublikasının baş dövlət fitosanitar müfəttişinin nəzarəti altında həyata keçirilir.

7.5. Baş dövlət fitosanitar müfəttişinin hüquq və vəzifələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

7.6. Baş dövlət fitosanitar müfəttişlərinin geyim forması və istifadə qaydası, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir

7.7. Dövlət fitosanitar xidmətlərinin əhatə dairəsinə aşağıdakılar daxildir:

7.7.1. bitkiçilik təsərrüfatlarına zərərli orqanizmlərlə mübarizə sahəsində məsləhət və təlim xidmətlərinin göstərilməsi;

7.7.2. dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, hüquqi və fiziki şəxslərə məxsus bitkiçilik təsərrüfatlarında, kənd təsərrüfatı və meşə sahələrində, o cümlədən şəxsi bağ sahələrində, kənd təsərrüfatına aid olmayan torpaqlarda fitosanitar müşahidələrin aparılması, zərərli orqanizmlərin növünün təyini və əmələgəlmə səbəblərinin, onların yayılma arealının və dərəcəsinin, aparılacaq mübarizə üsullarının və həcminin müəyyənləşdirilməsi;

7.7.3. dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, hüquqi və fiziki şəxslərə məxsus bitkiçilik təsərrüfatlarında, kənd təsərrüfatı və meşə sahələrində, o cümlədən şəxsi bağ sahələrində, kənd təsərrüfatına aid olmayan torpaqlarda karantin tətbiq edilən və digər zərərli orqanizmlərin zərərsizləşdirilməsi xidmətlərinin göstərilməsi;

7.7.4. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin reqlamentlərinə uyğun və təhlükəsiz istifadəsi, saxlanılması, daşınması, utilizasiyası və ya məhv edilməsi sahəsində xidmətlərin göstərilməsi;

7.7.5. dövlət büdcəsi və büdcədənkənar vəsaitlərin hesabına ölkə ərazisində istifadə müddəti bitmiş və istifadəyə yararsız bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin utilizasiyası və ya məhv edilməsinin təşkil edilməsi;

7.7.6. dövlət büdcəsi və büdcədənkənar vəsaitlərin hesabına fitosanitar nəzarət orqanının qərarları əsasında hüquqi və fiziki şəxslərə, bələdiyyələrə və dövlət orqanlarına (qurumlarına) məxsus ərazilərdə xüsusi təhlükəli zərərli orqanizmlərlə mübarizə tədbirlərinin həyata keçirilməsi.

## 3-cü fəsil

## Bitki mühafizəsinin təşkili

**Maddə 8. Fitosanitar monitorinqlər**

8.1. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasında aşkar olunmayan və ya məhdud ərazilərində yayılmış zərərli orqanizmlərin digər ərazilərdə mövcud olub-olmamasını, yayılma vəziyyətini (statusunu), yayılma arealını və səbəblərini müəyyənləşdirmək məqsədilə fitosanitar monitorinqlərin aparılması təşkil edilir.

8.2. Fitosanitar monitorinqlərin aşağıdakı növləri mövcuddur:

8.2.1. Azərbaycan Respublikasında aşkar olunmayan və ya məhdud ərazilərində yayılmış zərərli orqanizmlərin ölkənin digər ərazilərində mövcudluğuna dair hüquqi və fiziki şəxslərdən, o cümlədən dövlət və yerli özünüidarəetmə orqanlarından, fitosanitar xidmət göstərən subyektlərdən, elmi-tədqiqat müəssisələrindən, universitetlərdən, ictimai təşkilatlardan, alimlərdən, tədqiqatçılardan, məsləhətçilərdən, elmi jurnallardan, mediadan məlumatların toplanması və təhlili (bundan sonra – ümumi monitorinq);

8.2.2. Azərbaycan Respublikasının ərazisində ayrı-ayrı bitki və bitkiçilik məhsullarına, əkin və səpin materiallarına, zərərli orqanizmlərə və ya onların qruplarına yerində fitosanitar baxışın keçirilməsi, nümunələr götürülərək laborator sınaqlara cəlb edilməsi (bundan sonra – xüsusi monitorinq).

8.3. Bitkiçilik subyektləri, fitosanitar xidmət göstərən subyektlər, elmi-tədqiqat institutları, təhsil müəssisələri, alimlər, tədqiqatçılar, məsləhətçilər hər hansı karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizm aşkarladıqda, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal məlumat verməli və zərərli orqanizmin identifikasiya olunması (təyin edilməsi) üçün bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının və aşkarlanan zərərli orqanizmlərin nümunələrini müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) təqdim etməlidir.

8.4. Elmi-tədqiqat institutları, təhsil müəssisələri, alimlər, tədqiqatçılar və məsləhətçilər elmi araşdırmalar zamanı aşkarladıqları zərərli orqanizmin ərazidə mövcudluğuna dair məlumatdan yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin zərərli orqanizmin mövcudluğu, ərazidə yayılma statusu rəsmi təsdiq edildikdən sonra istifadə edə bilərlər.

8.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ümumi monitorinqlərin təşkili üçün Azərbaycan Respublikasının ərazisində zərərli orqanizmlərin aşkarlanmasına dair mümkün mənbələrdən məlumatların çevik toplanması, dəqiqləşdirilməsi, zərərli orqanizmin identifikasiyası və mövcudluğunun təsdiqi qaydaları müəyyən edilir.

8.6. Xüsusi monitorinqlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ümumi monitorinqlərin nəticələri də nəzərə alınmaqla hazırlanan illik Milli Monitorinq Planı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) özü və/və ya onun müraciəti əsasında dövlət fitosanitar xidmətlərini göstərən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan fitosanitar müşahidələrin nəticələri nəzərə alınmaqla həyata keçirilir.

8.7. Milli Monitorinq Planı əsasında hər il həyata keçirilən xüsusi monitorinqlər və müşahidələr dövlət büdcəsindən ayrılan və büdcədənkənar vəsait hesabına maliyyələşdirilir.

8.8. Xüsusi monitorinqlər elmi məlumatlara əsasən, zərərli orqanizmin mövcud olması ehtimal olunan bütün bitki və bitkiçilik məhsullarında, torpaqlarda, əkin və meşə sahələrində, tikililərdə, nəqliyyat vasitələrində və avadanlıqlarda aparılmalıdır.

8.9. Aparılmış fitosanitar monitorinqlər nəticəsində Azərbaycan Respublikası ərazisində aşkar olunmayan karantin tətbiq edilən zərərli orqanizmlər aşkarlandıqda,

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tabeliyində fəaliyyət göstərən "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyalarda həmin zərərli orqanizmin identifikasiyasını həyata keçirir və zərərli orqanizmin mövcudluğunu və yayılma vəziyyətini rəsmi təsdiq edir.

8.10. Rəsmi təsdiq edilmiş karantin tətbiq edilən zərərli orqanizmlərin yayılma arealının dəqiqləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında dövlət fitosanitar xidmətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ətraflı fitosanitar müşahidələr aparılır.

8.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aparılmış müşahidələrin və monitorinqlərin nəticələri əsasında müvafiq beynəlxalq standartların tələblərinə uyğun olaraq, karantin tətbiq edilən zərərli orqanizmlərin aşkarlanması, yayılma vəziyyəti (statusu), yayılma arealı və yayılma səbəblərinin də əks olunduğu hesabatlar hazırlayır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hazırladığı hesabatları rəsmi internet səhifəsində yerləşdirir və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə uyğun olaraq, müvafiq beynəlxalq və regional təşkilatlara bununla bağlı məlumat verir.

8.12. Azərbaycan Respublikasının ərazisində zərərli orqanizmlər üzrə fitosanitar monitorinqlərin aparılması qaydalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 9. Zərərli orqanizmlərin risk təhlili**

9.1. Zərərli orqanizmlərin risk təhlili zərərli orqanizmin yarada biləcəyi riskləri minimuma endirmək üçün tətbiq olunan tədbirlərin obyektivliyi, adekvatlığı və effektivliyi prinsipləri nəzərə alınmaqla aparılır.

9.2. Zərərli orqanizmin risk təhlili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq beynəlxalq standartların tələbləri nəzərə alınmaqla həyata keçirilir.

9.3. Zərərli orqanizmin risk təhlili aşağıdakı mərhələlərdən ibarətdir:

9.3.1. ilkin araşdırma – orqanizmin risk qiymətləndirilməsinin aparılması üçün onun identifikasiyası, zərərli olub-olmamasının və yayılma yollarının müəyyən edilməsi proseslərindən ibarət zərərli orqanizmin ilkin araşdırılması;

9.3.2. riskin qiymətləndirilməsi – zərərli orqanizmin karantin tətbiq edilən zərərli orqanizmlərə dair meyarlara uyğunluğunun, daxil olması, məskunlaşması və yayılması ehtimalının və onunla bağlı potensial iqtisadi, ekoloji nəticələrin miqyasının qiymətləndirilməsi proseslərindən ibarət zərərli orqanizmlərin riskinin qiymətləndirilməsi;

9.3.3. riskin idarə edilməsi – zərərli orqanizmin daxil olması və yayılması riskinin azaldılması üsullarının qiymətləndirilməsi və seçilməsindən ibarət zərərli orqanizmlərin yayılmasının qarşısının alınması, aradan qaldırılması və ya azaldılması.

9.4. Zərərli orqanizmin risk təhlilinin nəticələri aşağıdakı fitosanitar tədbirlərin həyata keçirilməsi zamanı nəzərə alınır:

9.4.1. tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısı hazırlanarkən;

9.4.2. bu Qanunun 19.10-cu maddəsinə əsasən Azərbaycan Respublikasının fitosanitar idxal tələbləri işlənib hazırlanarkən;

9.4.3. karantin rejiminin tətbiqi barədə qərar qəbul edilərkən;

9.4.4. bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların idxalına müvəqqəti məhdudiyyətlər, qadağalar qoyularkən və (və ya) idxal olunmuş məhsullara fitosanitar tələblər müəyyən edilərkən;

9.4.5. idxal olunmuş karantin nəzarətində olan materiallarda karantin tətbiq edilən zərərli orqanizmlər aşkarlandıqda zərərli orqanizmin xüsusiyyəti nəzərə alınmaqla, həmin materiallara tətbiq olunan fitosanitar nəzarət tədbirləri (məhsulların zərərsizləşdirilməsi, utilizasiyası, məhv edilməsi, geri qaytarılması və s.) müəyyənləşdirilərkən;

9.4.6. karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərlə mübarizə üsulları müəyyənləşdirilərkən;

9.4.7. respublika ərazisində digər fitosanitar nəzarəti tədbirləri həyata keçirilərkən.

9.5. Zərərli orqanizmin risk təhlili ilə bağlı tələblər fitosanitar norma və qaydalarla müəyyən edilir.

**Maddə 10. Tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin müəyyən edilməsi**

10.1. Azərbaycan Respublikasında aşkar olunmayan karantin tətbiq edilən zərərli orqanizmlərin, Azərbaycan Respublikasında məhdud ərazilərində yayılmış karantin tətbiq edilən zərərli orqanizmlərin, tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizmlərin və xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısı ayrı-ayrılıqda olmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən fitosanitar monitorinqlərin, digər nəzarət tədbirlərinin nəticələri və zərərli orqanizmlərin risk təhlili əsasında tərtib edilir.

10.2. Zərərli orqanizmlər aşağıda göstərilən meyarlara uyğun gəldikdə, karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısına daxil edilir:

10.2.1. zərərli orqanizmin taksonomik növü dəqiq təyin edildikdə;

10.2.2. zərərli orqanizm bitki və bitkiçilik məhsullarında davamlı olaraq zərərli əlamətlər yaratdıqda və həmin əlamətləri başqa bitkilərdə təkrarladıqda;

10.2.3. aparılmış fitosanitar monitorinqlər nəticəsində zərərli orqanizmin Azərbaycan Respublikasının ərazisində mövcud olmadığı və ya məhdud ərazidə mövcud olduğu təsdiq edildikdə;

10.2.4. zərərli orqanizm mövcud olmadığı əraziyə daxil olmaq (yüklərin, nəqliyyat vasitələrinin hərəkəti, müəyyən məsafə uçmaq qabiliyyəti kimi amillər hesabına), həmin ərazidə məskunlaşmaq və yayılmaq (ərazidə sahib bitkilərin mövcud olması, iqlim şərtlərinin uyğunluğu, təbii düşmənlərinin yetərli səviyyədə olmaması kimi amillər hesabına) xüsusiyyətinə və şəraitinə malik olduqda;

10.2.5. zərərli orqanizmin Azərbaycan Respublikasının ərazisinə və ya mövcud olmadığı digər ərazilərə daxil olması, uyğunlaşması və yayılması həmin ərazinin iqtisadi (məhsul itkisinə səbəb olması, nəzarət tədbirlərinin əhəmiyyətli xərc tələb etməsi), sosial (bitkilərə ziyan vurması hesabına əhalinin gəlirlərinə və məşğulluğuna mənfi təsir göstərməsi) və ekoloji (parklara, meşələrə ziyan vurması) göstəricilərinə mənfi təsir etdikdə;

10.2.6. ölkə ərazisində rəsmi mübarizə obyekti olduqda.

10.3. Zərərli orqanizmlər aşağıda göstərilən meyarlara uyğun gəldikdə tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizmlər siyahısına daxil edilir:

10.3.1. taksonomik növü dəqiq təyin edildikdə;

10.3.2. Azərbaycan Respublikasının ərazisində geniş yayılması səbəbindən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısında mövcud olmadıqda;

10.3.3. hər hansı ərazidə təbii yollarla, habelə bitki və bitkiçilik məhsullarının hərəkəti ilə deyil, əkin və səpin materialları vasitəsilə yayıldıqda;

10.3.4. sirayətləndirdiyi əkin və səpin materiallarının təyinatı üzrə istifadə edilməsinin ciddi iqtisadi itkilərə səbəb olması ilə bağlı elmi sübutlar olduqda;

10.3.5. əkin və səpin materiallarında onun mövcudluğunun qarşısını almaq üçün təsirli profilaktik tədbirlər həyata keçirildikdə.

10.4. Zərərli orqanizm aşağıda göstərilən meyarlara uyğun gəldikdə xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısına daxil edilir:

10.4.1. zərərli orqanizm kütləvi yayılmaq potensialına malik olduqda;

10.4.2. yayıldığı ərazilərdə bitki və bitkiçilik məhsullarının əhəmiyyətli itkisinə və keyfiyyətinin kəskin pisləşməsinə səbəb olması ilə bağlı elmi sübutlar olduqda;

10.4.3. əhəmiyyətli məhsul itkisi səbəbindən ölkənin ərzaq təhlükəsizliyi və məşğulluq üçün risklər yaratmasına dair elmi sübutlar olduqda;

10.4.4. ölkənin biomüxtəlifliyinə və ekosisteminə ciddi mənfi təsirlər göstərməsinə dair elmi sübutlar olduqda;

10.4.5. bitki mühafizə vasitələrinin davamlı və geniş istifadəsini tələb etdikdə.

10.5. Xüsusi təhlükəli zərərli orqanizmlər karantin tətbiq edilən və karantin tətbiq edilməyən zərərli orqanizmlərdən ibarət olmaqla müəyyənləşdirilir.

10.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən siyahıya daxil edilən karantin tətbiq edilən zərərli orqanizmlərlə bağlı aşağıdakı fitosanitar tədbirlər həyata keçirilir:

10.6.1. idxal olunmuş karantin nəzarətində olan materiallara fitosanitar baxışın həyata keçirilməsi, laborator sınaqlara cəlb edilməsi, karantin tətbiq edilən zərərli orqanizmlər aşkarlandıqda həmin materialların zərərsizləşdirilməsi, utilizasiyası, geri qaytarılması və ya məhv edilməsi;

10.6.2. karantin tətbiq edilən zərərli orqanizmlərin yayıldığı ölkələrdən bitki və bitkiçilik məhsullarının bütövlükdə və ya müəyyən ərazilərdən idxalının məhdudlaşdırılması və ya qadağan edilməsi, həmin ölkələrdən məhsulların idxalı üçün əlavə idxal şərtlərinin (zərərsizləşdirmə, zərərli orqanizmdən azad təsərrüfatdan idxal, sertifikatla müşayiət olunma) müəyyənləşdirilməsi;

10.6.3. zərərli orqanizmlərin ölkə ərazisinə daxil olmasının qarşısının alınması üçün əlavə tranzit tələblərinin (tranzit yüklərin nəqliyyat vasitələrinin zərərsizləşdirmə tədbirlərinə cəlb edilməsi, tranzit yüklərin ixracatçı ölkədə məhsulları fumiqasiya etməklə ölkə ərazisinə buraxılması) müəyyənləşdirilməsi və ya tranzit yüklərin fitosanitar tədbirlərə cəlb edilməsi;

10.6.4. ölkə ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərin mövcud olub-olmamasının və yayılma arealının müəyyənləşdirilməsi məqsədilə dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, hüquqi və fiziki şəxslərə, o cümlədən vətəndaşlara məxsus ərazilərdə fitosanitar monitorinqlərin və müşahidələrin aparılması, karantin nəzarətində olan materiallardan nümunələr götürərək laborator sınaqlara cəlb edilməsi;

10.6.5. Azərbaycan Respublikasında aşkar olunmayan karantin tətbiq edilən zərərli orqanizmlər aşkarlandıqda, həmin ərazidə zərərli orqanizmin ləğv edilməsi ilə əlaqədar dərhal fitosanitar tədbirlərin görülməsi, bitkiçilik subyektlərinə zərərli orqanizmlə bağlı mübarizə tədbirlərinin görülməsinə dair tələblərin qoyulması və icrasına nəzarətin təmin edilməsi;

10.6.6. karantin tətbiq edilən zərərli orqanizmin aşkarlandığı ərazilərdə zərərli orqanizmin sahib bitkiləri və bitkiçilik məhsullarının əkilməsi, becərilməsi, yığılması, daşınması, saxlanması, satışı ilə bağlı məhdudiyyətlərin və qadağaların qoyulması, bitkilərin zərərsizləşdirilməsi, utilizasiyası və məhv edilməsi;

10.6.7. bu Qanunla müəyyən edilən digər fitosanitar tədbirlərin həyata keçirilməsi.

10.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən siyahıya daxil edilən xüsusi təhlükəli zərərli orqanizmlərlə bağlı bu Qanunun 10.6-cı maddəsində göstərilən tədbirlərdən əlavə aşağıdakı fitosanitar tədbirlər həyata keçirilir:

10.7.1. Azərbaycan Respublikasının ərazisində karantin tətbiq edilən xüsusi təhlükəli zərərli orqanizmlər aşkarlandıqda və aparılan ilkin ləğvetmə tədbirlərinin yetərli olmadığı halda, ərazidə karantin elan edilməsi;

10.7.2. karantin elan edilmiş ərazilərdə dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına bu Qanunda müəyyən edilmiş zərərli orqanizmlə mübarizə tədbirlərinin həyata keçirilməsi;

10.7.3. karantin tətbiq edilməyən xüsusi təhlükəli zərərli orqanizmlərin ölkə ərazisində yayıldığı ərazilərdə mütəmadi fitosanitar monitorinqlərin aparılması, həmin zərərli orqanizmlərin iqtisadi və ekoloji ziyanlarının qiymətləndirilməsi və yüksək sirayətlənmə olan ərazilərdə dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına mübarizə tədbirlərinin aparılması.

10.8. Bu Qanunun 8-ci maddəsinə əsasən aparılan monitorinqlər nəticəsində yeni zərərli orqanizmlər aşkarlandıqda və bu Qanunun 10.2-ci, 10.3-cü və 10.4-cü maddələrində müəyyən edilmiş meyarlara uyğun gəldikdə, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin zərərli orqanizm müvafiq olaraq tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısına əlavə edilir.

10.9. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirdiyi fitosanitar nəzarət tədbirləri zamanı Azərbaycan Respublikasında aşkar olunmayan, tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısında olmayan, bitki və bitkiçilik məhsullarına zərərvurma potensialı olan zərərli orqanizm təsbit etdikdə, daha ətraflı risk təhlili aparılana qədər həmin zərərli orqanizmə müvəqqəti olaraq, lakin 1 ildən çox olmamaqla, bu Qanunla karantin tətbiq edilən zərərli orqanizmlərə dair müəyyən edilmiş tədbirləri tətbiq edir. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) müvəqqəti tədbirlərin tətbiq edildiyi müddətdə zərərli orqanizmin ətraflı risk təhlilini aparır, onun bu Qanunun 10.2-ci, 10.3-cü və 10.4-cü maddələrində nəzərdə tutulan meyarlara uyğun olub-olmamasını müəyyən edir və bu Qanunun 10.8-ci maddəsinə uyğun olaraq tənzimlənən xüsusi təhlükəli zərərli orqanizmlərin siyahısına əlavə edir.

10.10. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin açıq reyestri yaradılır.

**Maddə 11. Karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin aşkarlandığı ərazilərdə həyata keçirilən mübarizə tədbirləri**

11.1. Azərbaycan Respublikasının ərazisində aşkar olunmayan və ya məhdud ərazilərində yayılmış karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin digər ərazilərdə mövcudluğu bu Qanunun 8.9-cu maddəsinə uyğun təsdiq olunduqda, aşağıdakı fitosanitar tədbirlər həyata keçirilməlidir:

11.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risk təhlili nəticələri əsasında zərərli orqanizmlə əlaqəli risklərin idarə edilməsinə dair qərar çıxarılmalı və ləğvetmə planı hazırlanmalıdır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən çıxarılan qərarın bitkiçilik subyektləri tərəfindən icrası məcburidir;

11.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qərar haqqında həmin ərazidə yerləşən bitkiçilik subyektlərini, dövlət fitosanitar xidmətlərini həyata keçirən müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanı (qurumu) və digər dövlət orqanlarını dərhal məlumatlandırmalı və aşkarlanan karantin tətbiq edilən zərərli orqanizmin yaratdığı risklər, sahib bitkiləri və mübarizə üsulları haqqında kütləvi informasiya vasitələrində maraqlı tərəflərin məlumatlandırılmasını təmin etməlidir;

11.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında dövlət fitosanitar xidmətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşkarlanan zərərli orqanizmin yayılma sərhədlərinin və bufer zonasının müəyyən edilməsi ilə bağlı fitosanitar müşahidələr aparmalıdır;

11.1.4. bitkiçilik subyektləri müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanın (qurumun) qərarı və ləğvetmə planı əsasında aşkarlanan zərərli orqanizmlə bağlı zərərsizləşdirmə tədbirlərini həyata keçirməli, zərərsizləşdirmə tədbirləri səmərə vermədikdə, yoluxmuş bitki və bitkiçilik məhsullarını məhv etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir;

11.1.5. bitkiçilik subyektləri müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanın (qurumun) qərarında nəzərdə tutulduğu halda, aşkarlanan karantin tətbiq edilən zərərli orqanizmlə sirayətlənmiş bitki, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların geri çağırılmasını, zərərsizləşdirilməsini və ya məhv edilməsini təmin etməli, karantin nəzarətində olan materiallarla təchiz etdiyi subyektləri zərərli orqanizmin aşkarlanması və bununla bağlı həmin subyektlər tərəfindən materialların saxlandığı, daşındığı və satıldığı yerlərdə həyata keçirilməli olan mübarizə tədbirləri haqqında məlumatlandırmalıdır;

11.1.6. bitkiçilik subyektləri müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanın (qurumun) qərarında nəzərdə tutulduğu halda, həmin qərarda müəyyən edilmiş müddət ərzində zərərli orqanizmin yayıldığı ərazidə sahib bitkilərin yenidən əkinini dayandırmalıdır;

11.1.7. vətəndaşlar karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmləri fərdi yaşayış yerlərində, bağlarda, həyətyanı sahələrində, tikililərdə müşahidə etdikdə, bu haqda müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanı (qurumu) məlumatlandırmalı və həmin ərazilərdə fitosanitar xidmət göstərən subyektlər tərəfindən zərərsizləşdirmə tədbirlərinin həyata keçirilməsinə şərait yaratmalıdır;

11.1.8. dövlət fitosanitar xidmətini həyata keçirən müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) dövlət büdcəsi və büdcədənkənar vəsaitlərin hesabına karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmin aşkarlandığı ərazilərdə yerləşən vətəndaşlara məxsus sahələrdə, obyektlərdə, parklarda, yol kənarlarında, ictimai yerlərdə zərərli orqanizmlə müxtəlif üsullarla (mexaniki, bioloji, kimyəvi, inteqrir və s.) mübarizə tədbirlərini aparmalı və nəticələri haqqında fitosanitar nəzarəti həyata keçirən müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) dövri məlumat verməlidir;

11.1.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşkarlanan zərərli orqanizmin ərazinin coğrafi və iqlim amilləri nəzərə alınmaqla məskunlaşması, yayılması, sahib bitkilərə ziyan vurması və seçilmiş mübarizə üsullarının səmərəliliyi ilə bağlı fitosanitar monitorinqlər aparılmalı və monitorinqlərin nəticələri risklərin idarə edilməsinə dair qərarlarda nəzərə alınmalıdır.

**Maddə 12. Zərərli orqanizmlərlə bağlı ərazidə karantin elan olunması və ləğv edilməsi**

12.1. Ölkə ərazisində xüsusi təhlükəli karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu təsdiq edildikdə və bu Qanunun 11.1-ci maddəsində müəyyən edilən tədbirlərin icrası zərərli orqanizmin məskunlaşmasının və yayılmasının qarşısının alınması üçün yetərli olmadıqda, Azərbaycan Respublikasının baş dövlət fitosanitar müfəttişinin təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin ərazidə karantin elan olunması barədə qərar qəbul edir.

12.2. Karantinin elan olunması ilə bağlı qərarda tətbiq olunacaq fitosanitar tədbirlər və məhdudiyyətlər həmin zərərli orqanizmin risk təhlili və böhran vəziyyətinin idarəetmə planı nəzərə alınmaqla müəyyənləşdirilir.

12.3. Karantin rejiminin tətbiq olunduğu ərazinin hüdudları aparılan fitosanitar monitorinqlərin nəticələri əsasında zərərli orqanizmlə sirayətlənmiş ərazi və bufer zona

olmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

12.4. Karantin rejimi elan olunduğu ərazidə yerləşən karantin nəzarətində olan materiallara, obyektlərə, zərərli orqanizmin yayılma yollarına aid olan nəqliyyat vasitələrinə, yüklərə, avadanlıqlara şamil edilir.

12.5. Ərazidə karantin rejiminin tətbiq edildiyi barədə məlumat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dərhal rəsmi elan olunur və həmin ərazidə olan bitkiçilik subyektlərinə və əhaliyə xəbərdarlıq edilir.

12.6. Ərazidə karantin elan olunması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarında aşağıdakı məlumatlar əks olunur:

12.6.1. karantin elan olunmasının səbəbləri;

12.6.2. karantin elan olunan ərazinin, habelə bufer zonanın yeri və hüdudları;

12.6.3. zərərli orqanizmlə mübarizə üçün tətbiq olunan karantin məhdudiyyətləri və fitosanitar tədbirlərinin siyahısı.

12.7. Karantin elan olunmuş ərazilərdə müvafiq icra hakimiyyəti orqanı (qurumu) tərəfindən müəyyən edilən fitosanitar tədbirlərin və məhdudiyyətlərin vətəndaşlar və bitkiçilik subyektləri tərəfindən icrası məcburidir.

12.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aidiyyəti dövlət orqanları ilə birlikdə karantin elan olunmuş ərazidə yerləşən və zərərli orqanizmlə sirayətlənmiş bitki və bitkiçilik məhsullarının inventarlaşması aparılır və fitosanitar tədbirlərin tətbiqi zamanı əsas götürülür.

12.9. Karantin elan olunan ərazilərdə müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə aşağıdakı məhdudiyyətlər və fitosanitar tədbirlər tətbiq edilə bilər:

12.9.1. karantin elan olunmuş ərazilərdə yerləşən bitki və bitkiçilik məhsullarında və digər karantin nəzarətində olan materiallarda, obyektlərdə müxtəlif üsullarla (mexaniki, bioloji, kimyəvi, inteqrir və s.) genişmiqyaslı mübarizə tədbirlərinin aparılması;

12.9.2. zərərli orqanizmin biologiyası nəzərə alınmaqla (əsasən, həşəratlar üzrə) onun qışlama yerlərində, o cümlədən vətəndaşlara, bitkiçilik subyektlərinə, bələdiyyələrə və dövlət orqanlarına (qurumlarına) məxsus ərazilərdə, obyektlərdə, evlərdə, həyətyanı sahələrdə payız-qış aylarında mexaniki, kimyəvi və digər mübarizə və zərərsizləşdirmə tədbirlərinin məcburi aparılması;

12.9.3. sahib bitkilərin və bitkiçilik məhsullarının karantin elan olunan ərazidən və ya həmin əraziyə daşınmasına yalnız həmin məhsulların müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən karantin elan olunan zərərli orqanizmdən azad olmasını təsdiq edən daxili karantin aktı, ixracı nəzərdə tutulan məhsullara münasibətdə isə fitosanitar sertifikat verildikdən sonra icazə verilməsi;

12.9.4. karantin tətbiq edilən zərərli orqanizmlərin sahib bitkilərinin həmin ərazidə yenidən əkilməsinə müvəqqəti qadağa qoyulması;

12.9.5. bitkiçilik subyektləri və vətəndaşlara məxsus karantin tətbiq edilən zərərli orqanizmlə sirayətlənmiş bitki, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi, utilizasiyası və ya məhv edilməsi;

12.9.6. karantin elan olunmuş ərazidə yerləşən və ya həmin ərazidən keçən və zərərli orqanizmin yayılma yollarına aid edilən nəqliyyat vasitələrinin, avadanlıqların, texnikaların yalnız zərərsizləşdirilmə tədbirləri həyata keçirildikdən sonra həmin əraziyə və ya həmin ərazidən kənara hərəkətinə icazə verilməsi;

12.9.7. karantin elan olunan zərərli orqanizmlərin yayıldığı ölkələrdən bitki və bitkiçilik məhsullarının bütövlükdə və ya müəyyən ərazilərdən idxalının məhdudlaşdırılması və ya qadağan edilməsi, həmin ölkələrdən məhsulların idxalı üçün əlavə idxal tələblərinin müəyyənləşdirilməsi;

12.9.8. kənd təsərrüfatı heyvanlarının karantin elan olunmuş ərazidəki otlaq sahələrinə daxil olmasının məhdudlaşdırılması.

12.10. Karantin elan olunmuş ərazilərdə sirayətlənmiş bitki və bitkiçilik məhsulları və digər karantin nəzarətində olan materiallar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən inventarlaşdırılır, zərərli orqanizmə siyarətlənmə səviyyəsi və təhlükəlilik dərəcəsindən asılı olaraq zərərsizləşdirilməsi, utilizasiya edilməsi və ya məhv edilməsi haqqında akt tərtib edilir və icra edilməsi üçün dövlət fitosanitar xidmətini həyata keçirən müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) təqdim edilir.

12.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) karantin elan olunan ərazinin bufer zonasına aid ərazidə torpaq sahəsinə malik bitkiçilik subyektlərinə və vətəndaşlara, öz ərazisində fitosanitar tədbirlərin həyata keçirilməsi barədə rəsmi bildiriş verir və qanunvericilikdə nəzərdə tutulmuş tələblər qoyur.

12.12. Bitkiçilik subyektləri və vətəndaşlar bu tələblərə əməl etmədiyi halda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bildirişdə tələb olunan fitosanitar tədbirləri həyata keçirmək məqsədilə bu ərazidə olan bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi və ya məhv edilməsi barədə qərar qəbul edir.

12.13. Karantin elan olunan ərazilərdə məhdudiyyətlərin qoyulması və fitosanitar tədbirləri vətəndaşlara məxsus ərazilərdə, obyektlərdə, parklarda, meşələrdə, yol kənarlarında, dövlət orqanlarına (qurumlarına) məxsus ərazilərdə, ictimai yerlərdə aparıldıqda bununla bağlı yaranan xərclər dövlət büdcəsinin, büdcədənkənar vəsaitlərin hesabına, bitkiçilik subyektlərinə məxsus ərazilərdə, bağlarda, obyektlərdə aparıldıqda isə onların vəsaiti hesabına həyata keçirilir.

12.14. Karantin elan olunan ərazinin bufer zonalarında da zərərli orqanizm aşkar edilərsə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən karantin ərazisinin sərhədləri genişləndirilir.

12.15. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)karantin elan olunan ərazini fitosanitar monitorinqlər aparmaqla müntəzəm olaraq tədqiq edir və karantin tətbiq edilən zərərli orqanizmlərin ərazidə mövcudluğunu, aparılan mübarizə tədbirlərinin səmərəliliyini, karantin rejiminin qüvvədə saxlanılması və ya ləğv edilməsinin məqsədəuyğunluğunu qiymətləndirir.

12.16. Müfaviq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı halları müəyyən etdikdə, zərərli orqanizmlərlə sirayətlənmiş ərazidə və ya onun bir hissəsində karantin rejiminin ləğv edilməsi barədə qərar verir:

12.16.1. zərərli orqanizmin xüsusiyyəti nəzərə alınmaqla müəyyən edilmiş müddət ərzində aparılan fitosanitar monitorinqlər və müşahidələr nəticəsində zərərli orqanizmə rast gəlinmədikdə;

12.16.2. zərərli orqanizmin sahib bitkilərində müvafiq əlamətlər və simptomlar aşkar edilmədikdə.

12.17. Ərazidə karantin rejiminin ləğv edilməsi barədə məlumat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dərhal rəsmi elan olunur və həmin ərazidə olan bitkiçilik subyektlərinə və əhaliyə xəbərdarlıq edilir.

12.18. Karantin rejiminin ləğv olunduğu gündən etibarən ərazidə tətbiq olunan fitosanitar tədbirlər və məhdudiyyətlər aradan qalxmış hesab olunur.

12.19. Ərazidə karantin elan olunması, fitosanitar tədbirlərin və məhdudiyyətlərin tətbiqi və karantin rejiminin ləğv edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### Maddə 13. Bitki mühafizəsi sahəsində böhran vəziyyətinin idarə edilməsi

13.1. Bu Qanunun 11-ci və 12-ci maddələrinə əsasən həyata keçirilən tədbirlərə baxmayaraq, xüsusi təhlükəli zərərli orqanizmlərin ərazidə kütləvi şəkildə çoxalması və yayılması, həmin ərazidə yerləşən bitki və bitkiçilik məhsullarına ciddi ziyan vurması müəyyən edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklifi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin ərazidə böhran vəziyyəti elan edilməsinə dair qərar verilir.

13.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən böhran vəziyyətinin elan edilməsinə dair qərarda böhran vəziyyətinin idarə edilməsi məqsədilə zərərli orqanizmin xüsusiyyəti nəzərə alınmaqla qabaqlayıcı, məhdudlaşdırıcı və qadağanedici tədbirlər müəyyən edilir.

13.3.Böhran vəziyyəti üçün əsaslar yarandıqda dövlət orqanları, bələdiyyələr, bitkiçilik subyektləri bu haqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) dərhal məlumatlandırmalıdırlar.

13.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aidiyyəti dövlət orqanlarının və qurumlarının iştirakı ilə xüsusi təhlükəli zərərli orqanizmlərlə bağlı böhran vəziyyətinin idarə edilməsinə dair planlar hazırlamalı və aparılmış təcrübələr əsasında onları yeniləməlidir. Böhran vəziyyətinin idarə edilməsinə dair planlar bir və ya bir neçə xüsusi təhlükəli zərərli orqanizmləri əhatə edə bilər.

13.5. Hər bir xüsusi təhlükəli zərərli orqanizmlə bağlı böhran vəziyyətinin idarə edilməsi planında aşağıdakılar əhatə olunmalıdır:

13.5.1. böhran vəziyyətinə səbəb ola bilən xüsusi təhlükəli zərərli orqanizmlərin hər biri üzrə ərazinin iqtisadiyyatı, bitki sağlamlığı və ətraf mühit üçün yaratdığı təhlükə riskinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması üçün görüləcək tədbirlər;

13.5.2. hər bir dövlət orqanının (qurumunun), bələdiyyələrin, bitkiçilik subyektlərinin planda nəzərdə tutulan tədbirlərin icrasında rolu və öhdəlikləri;

13.5.3. böhran vəziyyəti baş verdikdə, görüləcək tədbirlərin icrası ilə bağlı nəzərdə tutulan çevik qərarvermə, əlaqələndirmə, kommunikasiya və hesabatlılıq mexanizmləri;

13.5.4. hər bir zərərli orqanizmlə mübarizə üçün tələb olunan minimum pestisid, feromon tələ, maşın və avadanlıq ehtiyatı və cəlb olunacaq şəxsi heyət haqqında məlumat.

13.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) böhran vəziyyətlərində, habelə bu Qanunun 12-ci maddəsində nəzərdə tutulan karantin təbirlərinin icrasında onların fəaliyyətlərinin əlaqələndirilməsi və səmərəli təşkili məqsədilə həmin orqanların və qurumların nümayəndələrindən ibarət komissiya və komissiyanın qərargahlarını yaradır.

13.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aidiyyəti dövlət orqanlarını (qurumlarını), bələdiyyələri cəlb etməklə hər bir xüsusi təhlükəli zərərli orqanizmə dair böhran vəziyyətinin idarə edilməsi planının icrası ilə bağlı sahə simulyasiya məşqləri təşkil edir.

### Maddə 14. Zərərli orqanizmlərdən azad zonaların, azad istehsal sahələrinin və istehsal yerlərinin müəyyən olunması

14.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bitki, bitkiçilik məhsullarının beynəlxalq ticarəti zamanı idxalçı ölkələrin fitosanitar idxal tələblərinə uyğunluğun təsdiqi məqsədilə aşağıdakı hallarda “zərərli orqanizmlərdən

azad zona", "zərərli orqanizmdən azad istehsal sahəsi" və ya "zərərli orqanizmdən azad istehsal yeri" rəsmi tanınır və uçota alınır.

14.1.1. ardıcıl aparılan fitosanitar monitorinqlər nəticəsində karantin tətbiq edilən zərərli orqanizmlərin ərazidə mövcud olmaması sübut edildikdə;

14.1.2. ərazinin zərərli orqanizmlərdən azad olunması məqsədilə nəzərdə tutulmuş fitosanitar tədbirlər tam həyata keçirildikdə;

14.2. ərazinin zərərli orqanizmlərdən azad statusunun saxlanılması ilə bağlı qabaqlayıcı, məhdudlaşdırıcı və mübarizə tədbirlərini ehtiva edən fitosanitar nəzarət sistemi mövcud olduqdaZərərli orqanizmlərdən azad zona müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bilavasitə özü tərəfindən, zərərli orqanizmdən azad istehsal yeri və sahəsi isə bitkiçilik subyektlərinin müraciəti əsasında aparılan fitosanitar nəzarət tədbirlərinin nəticələri əsasında müəyyən edilir.

14.3. Zərərli orqanizmlərdən azad zonanın hüdudları Azərbaycan Respublikasının ərazisində məhdud ərazidə yayılmış hər hansı zərərli orqanizmin yayılması və bufer zona nəzərə alınmaqla respublikanın digər ərazilərindən və ya daha məhdud ərazilərdən ibarət ola bilər.

14.4. Zərərli orqanizmlərdən azad zonaya digər ərazilərdən bitki və bitkiçilik məhsullarının daşınmasına yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin məhsullara keçirilən fitosanitar baxış və aparılan laborator sınaqlar nəticəsində zərərli orqanizmdən azad olmasına dair daxili karantin aktı verildikdən sonra yol verilir.

14.5. Zərərli orqanizmdən azad istehsal sahələri və istehsal yerləri müəyyən edildikdə, həmin sahələrdə və istehsal yerlərində istehsal olunan bitki və bitkiçilik məhsullarının yerli bazara yerləşdirilməsi və ya ixracı zamanı sadələşdirilmiş nəzarət tədbirləri tətbiq edilir.

14.6. Zərərli orqanizmdən azad istehsal zonalarının, istehsal yerlərinin və sahələrinin yaradılması və rəsmi tanınması qaydası fitosanitar norma və qaydaları ilə müəyyənləşdirilir.

**Maddə 15. Karantin tətbiq edilməyən xüsusi təhlükəli zərərli orqanizmlərlə mübarizə tədbirləri**

15.1. Azərbaycan Respublikasının ərazisində yayılmış, lakin xüsusi təhlükəli hesab edilən zərərli orqanizmlərlə bağlı aşağıdakı fitosanitar tədbirləri həyata keçirilir:

15.1.1. hər il dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına fitosanitar xidməti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən zərərli orqanizmlərin (əsasən, həşəratlar üzrə) biologiyası nəzərə alınmaqla, onların qışlama yerlərində və aktiv dövrlərində açıq sahələrdə mübarizə tədbirləri həyata keçirilir;

15.1.2. bitkiçilik subyektləri tərəfindən öz təsərrüfatlarında fitosanitar xidmət subyektlərini cəlb etməklə zərərli orqanizmlərlə profilaktik mübarizə və ləğvetmə tədbirləri aparılır;

15.1.3. kütləvi çoxalması və yayılması baş verdikdə həmin ərazilərdə müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən böhran vəziyyəti elan edilir və bu Qanunun 13-cü maddəsində nəzərdə tutulan tədbirlər həyata keçirilir.

15.2. Fitosanitar xidməti subyektləri və bitkiçilik subyektləri xüsusi təhlükəli zərərli orqanizmlərin aşkarlanması, yayılması, çoxalması, habelə onlarla mübarizə üçün həyata keçirilən tədbirlər haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir.

## 4-cü fəsil

## Bitki karantininin təşkili

### Maddə 16. Bitkiçilik subyektlərinin və onların obyektlərinin qeydiyyatı

16.1. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bitkiçilik subyektləri və (və ya) onların obyektləri qeydiyyat üçün tələb olunan məlumatlar təqdim etdiyi halda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən fitosanitar norma və qaydaların tələblərinə uyğunluğu qiymətləndirilmədən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınır.

16.2. Bitkiçilik subyektlərinin və (və ya) onların obyektlərinin qeydiyyatı üçün tələb olunan məlumatları (vergi və kommersiya sirri hesab olunan məlumatlar istisna olmaqla) əldə etmək üçün dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat - axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə edilir.

16.3. Bitki mənşəli qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, saxlanması, daşınması, dövriyyəsi ilə məşğul olan bitkiçilik subyektləri və (və ya) obyektləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Qida Təhlükəsizliyi Reyestrinə, digər bitkiçilik subyektləri və onların obyektləri isə bu Qanuna əsasən yaradılmış Bitki Sağlamlığı Reyestrinə daxil edilir və onlara Reyestrlərdən elektron və ya yazılı çıxarış verilir. Bitki Sağlamlığı Reyestri Azərbaycan Respublikasının informasiya ehtiyatıdır. Reyestrə daxil edilən kommersiya və (və ya) vergi sirri təşkil etməyən məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet səhifəsində yerləşdirilir və istifadəçilər üçün açıqdır.

16.4. Fitosanitar norma və qaydaların tələblərinə uyğunluğu qiymətləndirilmədən qeydiyyata alınan bitkiçilik subyektlərinin və (və ya) obyektlərinin tələblərə uyğunluğu bu Qanunun 23-cü maddəsinə uyğun olaraq aparılan dövlət nəzarəti tədbirləri çərçivəsində qiymətləndirilir.

16.5. Bitkiçilik subyektlərinin və ya onların obyektlərinin fəaliyyəti dövründə qeydiyyat mərhələsində verilmiş məlumatlarda dəyişiklik olduqda, habelə onların fəaliyyət sahəsi dəyişdikdə və ya öz fəaliyyətini dayandırdıqda, onlar bu haqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) məlumatlandırmalıdır.

16.6. Bitkiçilik subyektlərinin sahibkarlıq fəaliyyətinə xitam verildikdə və ya bir ildən artıq bu fəaliyyəti dayandırdıqda bitkiçilik subyektlərinin və onların obyektlərinin qeydiyyatı ləğv olunur.

16.7. Bitkiçilik subyektlərinin və obyektlərinin qeydiyyatı və Bitki Sağlamlığı Reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### Maddə 17. Karantin nəzarətində olan materialların izlənilməsi

17.1. Bitkiçilik subyektləri onları bitki və bitkiçilik məhsulları, əkin və səpin materialları və digər karantin nəzarətində olan materiallarla təchiz edən və ya bitki və bitkiçilik məhsulları, əkin və səpin materialları və digər karantin nəzarətində olan materiallarla təchiz etdiyi subyektləri müəyyən etməyə imkan verən izləmə sisteminə və prosedurlarına malik olmalıdır. Bitkiçilik subyektləri bu məqsədlə karantin nəzarətində olan materialların izlənilməsi qaydası ilə müəyyən olunan sənədlərin kağız üzərində və (və ya) elektron daşıyıcılarda tərtib olunmasını və saxlanılmasını təmin etməlidir.

17.2. Bitkiçilik subyektləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi əsasında bu Qanunun 17.1-ci maddəsində qeyd olunan sənədləri, habelə malik olduğu izləmə sistemi və prosedurları haqqında məlumatları həmin orqana təqdim etməlidirlər.

17.3. Bitkiçilik subyektləri bazara yerləşdirdikləri və ya yerləşdirilməsi nəzərdə tutulan karantin nəzarətində olan materialların asanlıqla izlənilməsini təmin etmək məqsədilə həmin məhsulların "Qida təhlükəsizliyi haqqında", "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarına və bu Qanuna uyğun olaraq etiketlənməsini və tələb olunan sənədlərlə müşayiət olunmasını təmin etməlidirlər.

17.4. Karantin nəzarətində olan materialların izlənilməsi qaydası "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn qanunvericilik aktları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 18. Azərbaycan Respublikasına idxal olunmuş karantin nəzarətində olan materiallara dair tələblər**

18.1. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş karantin nəzarətində olan materiallar karantin tətbiq edilən zərərli orqanizmlərdən azad olmalı və bu Qanuna əsasən müəyyən olunmuş tələblərə və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin tələblərə ekvivalentliyi tanınmış digər dövlətlərin qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

18.2. Bu Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərin Azərbaycan Respublikası ərazisinə gətirilməsinə və yayılmasına yol verilmir.

18.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ixracatçı ölkələrdə yayılmış zərərli orqanizmlər və onların yaratdığı təhlükə riskinin səviyyəsindən asılı olaraq həmin ölkələrdən idxal olunmuş karantin nəzarətində olan materiallara münasibətdə fərqli tələblər müəyyənləşdirə bilər.

18.4. Risk dərəcəsi nəzərə alınmaqla xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən karantin nəzarətində olan materialların Azərbaycan Respublikasının ərazisinə idxal olunması üçün həmin materiallar ixracatçı ölkənin səlahiyyətli orqanı tərəfindən Azərbaycan Respublikasının idxal tələbləri nəzərə alınmaqla verilmiş və zərərli orqanizmlərdən azad olmasını təsdiq edən fitosanitar sertifikatla müşayiət olunmalıdır.

18.5. Zərərli orqanizmlərin yayılma riski aşağı olan və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən karantin nəzarətində olan materialların Azərbaycan Respublikasının ərazisinə idxal olunması üçün fitosanitar sertifikat tələb olunmur.

18.6. Fitosanitar sertifikatların kağız forması və ya onların elektron əvəzediciləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin və beynəlxalq standartların tələbləri nəzərə alınmaqla tərtib edilməli və verilməlidir. Yük fitosanitar sertifikatın verildiyi tarixdən 15 gündən gec olmamaqla ixracatçı ölkəni tərk etməlidir.

18.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirdiyi risk qiymətləndirməsinin nəticələrinə əsasən, bəzi ölkələrdən idxal olunmuş və ya yeni idxalı nəzərdə tutulan bitkilərin, bitkiçilik məhsullarının, əkin və səpin materiallarının və digər karantin nəzarətində olan materialların idxalının Azərbaycan Respublikasına karantin tətbiq edilən, tənzimlənən karantin tətbiq edilməyən və xüsusi

təhlükəli zərərli orqanizmlərin daxil olması və yayılması riski yaratdığını müəyyən edərsə və bu risklərin həyata keçirilən fitosanitar tədbirlərlə aradan qaldırılması mümkün olmazsa, həmin bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların idxalı qadağan edilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilməsi qadağan edilən bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların, qadağanın şamil edildiyi ölkələrin və ya ölkələrin hər hansı ərazilərinin siyahısı müəyyən edilir və rəsmi internet səhifəsində yerləşdirilir.

18.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirdiyi risk qiymətləndirməsinin nəticələrinə əsasən, bəzi ölkələrdən bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların Azərbaycan Respublikasına idxalının zərərli orqanizmlərin yayılması riski yaratdığı müəyyən edilərsə, lakin bu risklərin bir və ya bir neçə xüsusi fitosanitar zərərsizləşdirmə tədbirlərilə (ixracdan əvvəl fumiqasiya, istiliklə işlənmə, soyuq mühitdə zərərsizləşdirmə, radiasiya ilə işlənmə və s.) azaldılması mümkün olarsa, həmin xüsusi tədbirlərin həyata keçirilməsi şərtilə belə bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların idxalına icazə verilir.

18.9. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 10.1-ci maddəsinə əsasən, siyahısı müəyyən edilmiş zərərli orqanizmlər nəzərə alınmaqla xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların müxtəlif zərərli orqanizmlərdən azad olmasına, habelə həmin materiallara dair xüsusi tələblərin əks olunduğu fitosanitar idxal tələblərilə bağlı texniki normativ hüquqi akt qəbul edilir, gömrük orqanına və xarici ölkələrin səlahiyyətli qurumlarına göndərilir və rəsmi internet səhifəsində yerləşdirilir.

18.10. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ixracatçı ölkənin səlahiyyətli qurumunun zərərli orqanizmlərin yaratdığı risklərin azaldılması üçün həyata keçirdiyi fitosanitar tədbirlərin bu Qanunun 18.9-cu maddəsinə əsasən, Azərbaycan Respublikasında müəyyən edilən tələblərlə müqayisədə fitosanitar mühafizənin eyni və daha yüksək səviyyəsini təmin etdiyi müəyyən edildikdə, həmin ölkənin fitosanitar tədbirləri Azərbaycan Respublikasında qüvvədə olan xüsusi tədbirlərə ekvivalent hesab olunur və bu halda əlavə xüsusi tələblərin yerinə yetirilməsi tələb olunmur.

18.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunan siyahıda mövcud olan bitki və bitkiçilik məhsullarının əl yüklərində və poçt göndərişləri vasitəsilə gətirilməsinə yalnız həmin məhsullar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verilən miqdar həddində olduqda və şəxsi məqsədlər üçün istifadəsi nəzərdə tutulduqda icazə verilir. Əkin və səpin materiallarının, torpaqların əl yükü və poçt göndərişləri vasitəsilə Azərbaycan Respublikasının ərazisinə gətirilməsi yalnız ixracatçı ölkənin səlahiyyətli orqanı tərəfindən verilmiş fitosanitar sertifikatı olduqda həyata keçirilə bilər.

18.12. Əkin və səpin materialları karantin tətbiq edilən və tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizmlərdən azad olmalı, idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi həmin materialları Azərbaycan Respublikasının ərazisinə gətirməzdən əvvəl müvafiq icra hakimiyyəti orqanı (qurumu) tərəfindən verilən idxal karantin rəyini əldə etməlidir.

18.13. Azərbaycan Respublikasının ərazisinə gətirilən çox dövriyyəli taxta qablaşdırma materialları bu Qanunun 18.10-cu maddəsinə əsasən hazırlanmış fitosanitar idxal tələblərində müəyyən edilən digər hallar istisna olmaqla, müvafiq beynəlxalq standartların tələblərinə uyğun olaraq istiliklə zərərsizləşdirilməli və ya fumiqasiya

edilməli, beynəlxalq standartlarda göstərilmiş formaya uyğun möhürlə rəsmi markalanmalıdır.

18.14. Azərbaycan Respublikasının ərazisinə gətirilən istifadə edilmiş kənd təsərrüfatı texnikaları, avadanlıq və alətləri karantin tətbiq olunan zərərli orqanizmlərdən azad olmalı, Azərbaycan Respublikasının ərazisinə karantin nəzarətində olan materialların idxalı qaydasına uyğun fitosanitar nəzarətindən keçirilməlidir.

18.15. Azərbaycan Respublikasının ərazisinə bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının elmi-tədqiqat, tədris, sərgilərdə istifadə, seleksiya və sınaq məqsədilə gətirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada və şərtlərlə icazə verilir.

18.16. Karantin tətbiq edilən və tənzimlənən karantin tətbiq edilməyən canlı zərərli orqanizmlər Azərbaycan Respublikasının ərazisinə yalnız elmi-tədqiqat məqsədləri üçün və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risk qiymətləndirilməsi həyata keçirildikdən və qiymətləndirmə nəticəsində gətirilməsi məqsədəuyğun hesab edildikdən sonra icazə verilir.

18.17. Azərbaycan Respublikasının ərazisinə karantin nəzarətində olan materialları (müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən materiallar istisna olmaqla) idxal etmək istəyən idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi həmin materiallar ərazisinə gətirilməzdən əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada və müəyyən edilmiş müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada bildiriş göndərməlidir.

18.18. İdxalatçı və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən karantin nəzarətində olan materialların idxalından əvvəl bildirişin verilməsi ilə bağlı müddətlər idxal üçün istifadə olunan nəqliyyat vasitələri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 19. İdxal olunmuş karantin nəzarətində olan materiallara dair fitosanitar nəzarəti tədbirləri**

19.1. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının və digər karantin nəzarətində olan materialların karantin tətbiq edilən və tənzimlənən karantin tətbiq edilməyən zərərli orqanizmlərdən azad olmasını müəyyən etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risklərin qiymətləndirilməsi nəticələri əsasında Azərbaycan Respublikasının ərazisinə karantin nəzarətində olan materialların idxalı qaydasına uyğun olaraq dövlət nəzarəti tədbirləri həyata keçirilir.

19.2. Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sərhəd keçid məntəqələrinə yaxın ərazilərdə fitosanitar nəzarəti məntəqələri (dövlət sərhədinin buraxılış məntəqələri istisna olmaqla) təşkil edilir.

19.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xarici ölkələrdə karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin yayılması səbəbindən həmin ölkələrdən karantin nəzarətində olan materialların idxalının dayandırılması və ya məhdudlaşdırılması ilə bağlı qərar qəbul edir. Həmin xarici ölkələrin ərazilərindən karantin nəzarətində olan materialların idxalı ilə bağlı bu Qanunun 18.17-ci maddəsinə əsasən bildiriş daxil olduqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bildiriş göndərən idxalatçını və ya onun səlahiyyətli nümayəndəsini, habelə gömrük orqanını idxaldan imtina barədə real vaxt rejimində məlumatlandırır.

19.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 19.3-cü maddəsi nəzərə alınmaqla karantin nəzarətində olan materialların gömrük sərhədindən keçirilməsini təmin etmək məqsədilə bildirişi təsdiq edilmiş materiallar üzrə məlumatları real vaxt rejimində gömrük orqanına göndərir.

19.5. Gömrük orqanı tərəfindən idxal olunmuş karantin nəzarətində olan materiallara "Yaşıl dəhliz" və digər buraxılış sistemlərini tətbiq etmək məqsədilə məhsulların idxalatçılarının risk qruplaşdırılması aparılarkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) həmin idxalatçılara dair təqdim etdiyi risk informasiyası da nəzərə alınır.

19.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş karantin nəzarətində olan materiallara fitosanitar nəzarəti tədbirləri aşağıdakılardan ibarətdir:

19.6.1. karantin nəzarətində olan materialların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə icazə verilməsi üçün əsas olan və idxal olunmuş məhsul partiyasını müşayiət edən karantin nəzarətində olan materialların idxalı qaydası ilə müəyyən olunan sənədlərin, fitosanitar sertifikatların və digər hüquqmüəyyənedici sənədlərin mövcudluğunun və düzgünlüyünün yoxlanılması (bundan sonra - sənəd nəzarəti);

19.6.2. idxal olunmuş karantin nəzarətində olan materialların partiyasının tərkibinin, etiketinin, daşındığı nəqliyyat vasitəsinin həmin məhsula verilən fitosanitar sertifikatda və digər sənədlərdə göstərilən məlumatlarla eyniliyinin və uyğunluğunun yoxlanılması (bundan sonra – eynilik nəzarəti);

19.6.3. idxal olunmuş karantin nəzarətində olan materiallara fitosanitar baxışın keçirilməsi, yükü açaraq məhsuldan nümunənin götürülməsi və sınağının aparılması, onu daşıyan nəqliyyat vasitəsinin və bu Qanuna uyğun olaraq müəyyən edilmiş digər göstəricilərin yoxlanılması (bundan sonra - fiziki nəzarət).

19.7. Sənəd nəzarəti Azərbaycan Respublikasının ərazisinə gətirilmiş bütün karantin nəzarətində olan materiallara, eynilik nəzarəti və fiziki nəzarət isə məhsulun risk səviyyəsindən asılı olaraq, Azərbaycan Respublikasının ərazisinə karantin nəzarətində olan materialların idxalı qaydasına uyğun olaraq məhsullara şamil edilir.

19.8. Azərbaycan Respublikasının ərazisinə gətirilən karantin nəzarətində olan materialların fitosanitar nəzarəti məntəqələrinə və ya idxalatçıların məhsullarının saxlanc yerlərinə gətirilənədək həmin materiallardan zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısını almaq məqsədilə gömrük orqanı tərəfindən sərhəd keçid məntəqələrində sənəd nəzarəti və fitosanitar baxışı həyata keçirilir. İdxal olunan karantin nəzarətində olan materialların müvafiq sənədlərlə müşayiət olunmadığı, habelə fitosanitar baxışı zamanı zərərli orqanizmlərlə sirayətlənməsi riski mövcud olduğu müəyyənləşdirildikdə, gömrük orqanı dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu haqda məlumat verir. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) əldə etdiyi məlumatı təhlil edərək, aşağıdakı fitosanitar qərarlardan birini qəbul edir və gömrük orqanına və idxalatçıya bu barədə məlumat verir:

19.8.1. karantin nəzarətində olan materialın ölkə ərazisinə daxil olmadan geri qaytarılması;

19.8.2. ətraflı fitosanitar nəzarəti tədbirlərinin aparılması, o cümlədən yükün açılması ilə fitosanitar baxışın keçirilməsi və laborator sınaq üçün nümunələrin götürülməsi məqsədilə karantin nəzarətində olan materialın fitosanitar nəzarət məntəqələrinə "(dövlət sərhədindən buraxılış məntəqələri istisna olmaqla)" aparılması.

19.9. Gömrük orqanı bu Qanunun 19.8-ci maddəsində göstərilmiş hallarla yanaşı, müvafiq icra hakimiyyəti orqanının (qurumunun) apardığı risk qiymətləndirilməsi nəticələrinə əsaslanaraq karantin nəzarətində olan materiallar üzrə verdiyi risk

informasiyasına əsasən, həmin materialların ətraflı fitosanitar nəzarəti tədbirlərinə cəlb edilməsi üçün onların fitosanitar nəzarəti məntəqələrinə yönləndirilməsini təmin edir.

19.10. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş karantin nəzarətində olan materiallara ətraflı sənəd nəzarəti, eynilik nəzarəti və fiziki nəzarət tədbirləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sərhəd keçid məntəqələrinə yaxın ərazilərdə yerləşən fitosanitar nəzarəti məntəqələrində və ya idxalatçıların məhsullarının saxlanc yerlərində həyata keçirilir.

19.11. Fiziki nəzarət çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq) üçün bitkiçilik subyektlərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

19.12. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş karantin nəzarətində olan materiallar üzərində həyata keçirilən sənəd, eynilik və fiziki nəzarət tədbirləri nəticəsində hər hansı uyğunsuzluq aşkarlanmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) idxal sağlamlıq aktı tərtib edir və məhsul üzərində sərəncam vermək üçün idxalatçıya təqdim edir.

19.13. İdxal sağlamlıq aktının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

19.14. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bitki mənşəli qida məhsullarına verilən idxal sağlamlıq aktı bitki sağlamlığı tələbləri ilə yanaşı, “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılan dövlət nəzarəti tədbirləri nəticəsində məhsulun qida təhlükəsizliyi tələblərinə uyğunluğunu da əks etdirir.

19.15. İdxal olunan bitkilər, bitkiçilik məhsulları və digər karantin nəzarətində olan materiallar müvafiq sənədlərlə müşayiət olunmadıqda, Azərbaycan Respublikasının fitosanitar idxal tələblərinə əməl edilmədikdə, yükdə tənzimlənən zərərli orqanizm aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı qərarlardan birini qəbul edir:

19.15.1. tənzimlənən zərərli orqanizmlərin zərərsizləşdirmə, çeşidləmə, utilizasiya və ya emal (təkrar emal) yolu ilə məhv edilməsi mümkün olduqda, partiyanın bu tədbirlərin görülməsi üçün aparılmasına icazə vermək;

19.15.2. yükün idxalını qadağan etmək və ixracatçı ölkəyə geri qaytarmaq və ya başqa ölkəyə təkrar ixracına icazə vermək;

19.15.3. ixracatçı və ya başqa ölkəyə geri qaytarmaq mümkün olmadıqda, yükü məhv etmək.

19.16. Tənzimlənən zərərli orqanizmlərlə sirayətlənmiş yükün zərərsizləşdirilməsi fitosanitar nəzarəti məntəqələrinə yaxın ərazidə (yükdə zərərli orqanizm sərhəd buraxılış məntəqələrində və ya fitosanitar nəzarəti məntəqələrində aşkarlandıqda) və ya ölkə daxilində xüsusi ayrılmış sahələrdə yerləşən zərərsizləşdirmə zonalarında zərərli orqanizmlərin ətrafa yayılmasını istisna edən şərtlərlə daşınmaqla və saxlanmaqla həyata keçirilir. İdxal olunan yük zərərsizləşdirildikdən sonra müəyyən olunmuş vaxt ərzində sahibi tərəfindən geri götürülmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) yükün məhv edilməsi, yük istifadəyə yararlı olduğu təqdirdə isə digər məqsədlər üzrə istifadəsi barədə qanunvericilikdə nəzərdə tutulmuş qaydada qərar qəbul edir.

19.17. Fitosanitar nəzarəti zamanı həyata keçirilən fitosanitar tədbirləri ilə əlaqəli xərclər və məhv edilən yükün dəyərinin məsuliyyəti məhsulu idxal edən subyektin üzərinə

düşür.

19.18. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşkarlanan karantin tətbiq edilən zərərli orqanizmlər haqqında ixracatçı ölkələrin səlahiyyətli orqanlarına bildiriş göndərilir, müvafiq beynəlxalq və regional təşkilatlara bu haqda məlumat verilir.

19.19. Eyni istehsalçıya məxsus idxal olunmuş karantin nəzarətində olan materiallarda tənzimlənən zərərli orqanizmlərin aşkarlanması halları təkrarlandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin istehsalçıdan müvafiq materialların idxalını müvəqqəti olaraq, eyni hallar yenə təkrarlandıqda uyğunsuzluq aradan qaldırılanadək qadağan edir.

19.20. Azərbaycan Respublikasının ərazisinə karantin nəzarətində olan materialların idxalı qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 20. Tranzit daşınan məhsullara dair fitosanitar nəzarəti tədbirləri**

20.1. Azərbaycan Respublikasının ərazisindən bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların tranzit daşınmasına aşağıdakı hallarda icazə verilir:

20.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən malın ixracatçı olkəsində karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin yayılması səbəbindən karantin nəzarətində olan materialların idxalına dair qadağa və digər məhdudlaşdırıcı tədbirlər barədə qərarlar qəbul edilmədikdə;

20.1.2. məhsulların daşındığı nəqliyyat vasitələrinin yük yerləri üzərində gömrük plombları toxunulmaz və bütöv olduqda;

20.1.3. məhsullara dair müvafiq beynəlxalq sazişlərin tövsiyələrinə əsasən tərtib olunmuş nümunəvi formaya uyğun fitosanitar sertifikat təqdim edildikdə;

20.1.4. bitkilər, bitkiçilik məhsulları və digər karantin nəzarətində olan materiallar plomblanmış qapalı nəqliyyat vasitələrində və ya konteynerlərdə daşındıqda və zərərli orqanizmlərin yayılmasının qarşısını almaq üçün beynəlxalq standartların tələblərinə uyğun qablaşdırıldıqda;

20.1.5. bitkilər, bitkiçilik məhsulları və digər karantin nəzarətində olan materiallarla yüklənmiş nəqliyyat vasitələrinin üzərində zərərli orqanizmlərlə sirayətlənmə müşahidə edilmədikdə.

20.2. Bu Qanunun 20.1-ci maddəsində göstərilən şərtlər təmin edilmədiyi halda, habelə yük nəqliyyat vasitəsindən boşaldılıb digər bir və ya bir neçə nəqliyyat vasitəsinə yükləndikdə və saxlanc yerlərində saxlandıqda tranzit üçün gətirilən karantin nəzarətində olan materiallar Azərbaycan Respublikasının ərazisinə karantin nəzarətində olan materialların idxalı qaydasına müvafiq olaraq fitosanitar nəzarət tədbirlərinə cəlb edilir və nəzarət tədbirlərinin nəticəsinə uyğun olaraq bu Qanunun 21.8-ci maddəsinə uyğun təkrar ixrac fitosanitar sertifikatı verilir.

20.3. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tranzit daşınan yüklərin ixracatçı ölkəsində və ya tranzit keçdiyi digər ölkələrdə karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin yayıldığına dair məlumat əldə etdikdə və aparılan risk qiymətləndirmələrinə əsasən, həmin yüklərin ölkə ərazisindən keçməsi Azərbaycan Respublikasının ərazisində zərərli orqanizmlərin yayılması riski yaratdığını müəyyən etdikdə, yüklər əraziyə daxil olmamışdan əvvəl və ya daxil olduqdan sonra zərərsizləşdirmə tədbirlərinə cəlb olunması ilə bağlı qərar qəbul edilir və gömrük orqanına və fitosanitar xidməti göstərən subyektlərə məlumat verilir.

20.4. Bu Qanunun 20.2-ci və 20.3-cü maddəsində nəzərdə tutulan fitosanitar nəzarətində olan tranzit daşınan yüklər haqqında məlumatlar real vaxt rejimində gömrük

orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ötürülür.

**Maddə 21. İxrac edilən karantin nəzarətində olan materialların sertifikatlaşdırılması və nəzarət tədbirləri**

21.1. Azərbaycan Respublikasından ixrac edilən bitkilər, bitkiçilik məhsulları, əkin və səpin materiallarının idxal olunmuş ölkələrin tələblərinə uyğun olmasını təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin məhsulların fitosanitar sertifikatlaşdırılması aparılır.

21.2. Fitosanitar sertifikatlar və ya onların elektron əvəzediciləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərin və beynəlxalq standartların tələbləri nəzərə alınmaqla tərtib olunur və verilir.

21.3. Fitosanitar sertifikatlarda təsdiq edilməmiş dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir.

21.4. İxrac edilən bitki və bitkiçilik məhsullarına, əkin və səpin materiallarına fitosanitar sertifikatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşağıdakı şərtlər təmin edildikdə verilir:

21.4.1. sertifikatın verilməsi üçün müraciət edildikdə və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənildikdə;

21.4.2. yükün formalaşdığı bitkiçilik obyekti bu Qanuna uyğun olaraq qeydiyyata alındıqda;

21.4.3. qanunvericiliklə müəyyən edilmiş qaydada tələb olunan müvafiq sənədlər təqdim olunduqda;

21.4.4. sertifikat verilməsi nəzərdə tutulan yüklər tam formalaşdıqda, habelə fitosanitar baxışın keçirilməsi və nümunələrin götürülməsi üçün təqdim edildikdə;

21.4.5. göndərilən yüklər beynəlxalq standartların və idxalçı ölkənin tələblərinə cavab verdikdə.

21.5. Fitosanitar sertifikatın verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq) üçün bitkiçilik subyektlərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

21.6. Bitki və bitkiçilik məhsullarından, əkin və səpin materiallarından ibarət yükün idxalçı ölkələr üçün karantin tətbiq edilən zərərli orqanizmlər təkrar aşkarlandıqda və aparılan monitorinqlər zamanı həmin məhsulların yığıldığı təsərrüfatın qeyd edilən zərərli orqanizmlərlə sirayətlənməsi təsdiq edildikdə, bu hallar aradan qaldırılana qədər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin təsərrüfatdan formalaşmış yükə fitosanitar sertifikatın verilməsi müvəqqəti olaraq dayandırılır.

21.7. İxrac olunan karantin nəzarətində olan materiallara fitosanitar sertifikatın verildiyi tarixdən etibarən həmin materiallar 15 (on beş) gün ərzində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir. Bu müddət ərzində ölkəni tərk etmədikdə, həmin yükün yenidən sertifikatlaşdırılması həyata keçirilir.

21.8. Karantin nəzarətində olan materiallardan ibarət yük Azərbaycan Respublikasının ərazisinə müvəqqəti gətirilərək bir nəqliyyat vasitəsindən boşaldılaraq bir və ya bir neçə nəqliyyat vasitəsinə yükləndikdə, müvəqqəti saxlanc yerlərində saxlandıqdan sonra ixrac üçün təkrar nəqliyyat vasitəsinə yükləndikdə, həmin yüklərə

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təkrar ixrac fitosanitar sertifikatı verilir.

21.9. İxrac olunan karantin nəzarətində olan materiallara fitosanitar sertifikatın verilməsi qaydası və forması müvafiq beynəlxalq standartlar nəzərə alınmaqla müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

21.10. İxrac və təkrar ixrac fitosanitar sertifikatı verilmiş yüklər Azərbaycan Respublikasının ərazisini tərk edərkən risk əsaslı yanaşma əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin yüklərə fitosanitar nəzarət məntəqələrində fitosanitar nəzarəti təbirləri tətbiq edilir.

21.11. Azərbaycan Respublikasından ixrac edilmiş karantin nəzarətində olan materiallar idxalçı ölkələr tərəfindən Azərbaycan Respublikasının ərazisinə geri qaytarıldıqda, həmin materialların idxalına yalnız aşağıdakı şərtlər təmin edildiyi təqdirdə fiziki nəzarət tədbirləri həyata keçirilməklə icazə verilir:

21.11.1. ixrac sertifikatının əslini, idxaldan imtina etmiş ölkənin səlahiyyətli orqanı tərəfindən verilən imtina səbəblərinin aydın göstərildiyi imtina sənədini təqdim etdikdə;

21.11.2. məhsulların saxlanc və daşınma şərtlərinə riayət edilməsinə və məhsulların hər hansı zərərsizləşdirmə tədbirlərinə məruz qalmamasına dair yazılı zəmanəti və ya konteynerlər plomblu olduğu təqdirdə, materialların emal edilməməsi və ya boşaldılmaması barədə daşıyıcının arayışını təqdim etdikdə.

21.12. Geri qaytarılmış yüklərin idxalatçısı bu Qanunun 18.17-ci maddəsinə əsasən, elektron bildirişi həmin yüklər Azərbaycan Respublikasının ərazisinə gətirilməzdən əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməlidir.

21.13. Geri qaytarılan yüklər yüksək riskli məhsullara tətbiq edilən fiziki nəzarət tədbirlərinə cəlb olunur. Fiziki nəzarət tədbirləri nəticəsində heç bir uyğunsuzluq müəyyən edilmədiyi təqdirdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yükə dair idxal sağlamlıq aktı verilir və yükdə uyğunsuzluğun aşkarlanmadığına dair yükü geri qaytaran ölkənin səlahiyyətli qurumuna məlumat verilir.

21.14. Fiziki nəzarət tədbirləri nəticəsində yükdə hər hansı uyğunsuzluq aşkarlandıqda, bu Qanuna uyğun olaraq yükün zərərsizləşdirilməsi, utilizasiyası və ya məhv edilməsi barədə qərar qəbul edilir.

21.15. Geri qaytarılan yüklərə tətbiq edilən nəzarət tədbirləri və nümunələrin laborator sınaqları ilə bağlı bütün xərclər idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən ödənilir.

**Maddə 22. Karantin nəzarətində olan materialların Azərbaycan Respublikasının ərazisi daxilində hərəkəti üçün aparılan fitosanitar nəzarət tədbirləri**

22.1. Azərbaycan Respublikasının ərazisində bitki və bitkiçilik məhsulları, əkin və səpin materiallarının bir ərazidən başqa əraziyə daşınması üçün aşağıdakı hallarda daxili karantin aktı ilə müşayiət olunmalıdır:

22.1.1. bitkilər və bitkiçilik məhsulları, əkin və səpin materialları karantin elan olunan ərazidən daşındıqda;

22.1.2. bitki və bitkiçilik məhsulları, əkin və səpin materialları Azərbaycan Respublikasının ərazisində məhdud dairədə yayılmış tənzimlənən zərərli orqanizmlərin yayılma arealına aid ərazilərdən digər ərazilərə daşındıqda;

22.1.3. bitki və bitkiçilik məhsulları, əkin və səpin materialları digər ərazilərdən zərərli orqanizmlərdən azad zonaya gətirildikdə;

22.1.4. əkin və səpin materialları bir bitkiçilik obyektindən digər bitkiçilik obyektinə ilkin istehsal məqsədilə aparıldıqda;

22.1.5. ölkədən başqa nəqliyyat vasitəsilə ixracı nəzərdə tutulan bitki və bitkiçilik məhsulları, əkin və səpin materialları ölkənin bir inzibati ərazi vahidindən digər inzibati ərazi vahidinə daşınmaq üçün nəqliyyat vasitələrinə yüklənərkən.

22.2. Daxili karantin aktının verilməsi üçün müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən yükə fitosanitar baxış keçirilir və risk əsaslı yanaşma ilə məhsullardan laborator sınaq üçün nümunələr götürülür.

22.3. Daxili karantin aktının verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq) üçün bitkiçilik subyektlərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur. Götürülmüş nümunələrin akkreditasiya edilmiş özəl sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq ) üçün xidmət haqqı bitkiçilik subyektləri ilə laboratoriya arasında qarşılıqlı müqavilə əsasında müəyyən edilir.

22.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bitki və bitkiçilik məhsullarına, əkin və səpin materiallarına daxili karantin aktı aşağıdakı şərtlər təmin edildikdə verilir:

22.4.1. aktın verilməsi üçün müraciət edildikdə;

22.4.2. yükün formalaşdığı bitkiçilik obyekti bu Qanuna uyğun olaraq qeydiyyata düşdükdə;

22.4.3. aktın verilməsi nəzərdə tutulan yüklər tam formalaşdıqda, habelə fitosanitar baxışın keçirilməsi və nümunələrin götürülməsi üçün təqdim edildikdə;

22.4.4. yükün ixrac üçün nəzərdə tutulduğu halda, idxalçı ölkələrin tələblərinə cavab verdikdə.

22.5. Daxili karantin aktının forması və verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 23. Bitki karantini sahəsində dövlət nəzarəti tədbirləri**

23.1. Bitki karantini sahəsində dövlət nəzarəti tədbirləri aşağıdakılardan ibarətdir:

23.1.1. tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərlə bağlı ölkə üzrə vəziyyətin öyrənilməsi və risklərin qiymətləndirilməsi məqsədilə bitkiçilik obyektlərində bu Qanunun 8-ci maddəsində nəzərdə tutulan fitosanitar monitorinqlərin aparılması;

23.1.2. yükün ixrac sertifikatlaşdırılması zamanı və ya idxalçı ölkələrin səlahiyyətli qurumları tərəfindən idxalçı ölkələrdə müəyyən karantin tətbiq edilən zərərli orqanizmlər aşkarlandıqda, yükün formalaşdığı bitkiçilik obyektlərində həmin zərərli orqanizmlərin mövcudluğu ilə bağlı araşdırmanın aparılması, habelə bitkiçilik təsərrüfatlarının idxalçı ölkələrdə karantin tətbiq edilən zərərli orqanizmlərlə sirayətlənmə səviyyəsinin müəyyən edilməsi məqsədilə qiymətləndirilməsi;

23.1.3. bitkiçilik obyektinin bitki sağlamlığı sahəsində qanunvericiliyin tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq planlı və plandankənar yoxlamaların aparılması.

23.2. Dövlət nəzarəti tədbirləri nəticəsində pozuntular aşkarlandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məhdudlaşdırıcı tədbirləri tətbiq edir.

23.3. İlkin istehsalla məşğul olan bitkiçilik məhsullarının növlərinə görə ərazisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən həddən çox olan bitkiçilik obyektləri bitki sağlamlığına daxili nəzarət sisteminə (dövrü fitosanitar müşahidələrin aparılması və nəticələrinin uçotu, feromonların asılması və izlənilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, növbəli əkin, aşkarlanan zərərli orqanizmlərə çevik reaksiya mexanizmləri, işçilərin zərərli orqanizmlərlə bağlı təlimləndirilməsi) malik olmalı, nəzarətin nəticələrinin uçotunu aparmalı və müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tələb etdikdə həmin məlumatları təqdim etməlidir.

**Maddə 24. Bitki sağlamlığı sahəsində laboratoriya sınaqları**

24.1. Bitki sağlamlığı sahəsində dövlət nəzarətinin və tənzimlənməsinin həyata keçirilməsi məqsədilə istifadə olunan özəl sınaq laboratoriyaları “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu qaydada akkreditasiyadan keçirilməlidir. Bitki sağlamlığı sahəsində özəl sınaq laboratoriyalarının akkreditasiyası zamanı akkreditasiya orqanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) rəy alır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) rəyin verilməsi məqsədilə akkreditasiyası nəzərdə tutulan laboratoriyada qiymətləndirmə aparır və qiymətləndirmə nəticələrinə əsasən rəy tərtib edərək akkreditasiya orqanına təqdim edir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən akkreditasiyası nəzərdə tutulan laboratoriyada qiymətləndirmənin aparılması və rəyin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

24.2. Dövlət nəzarəti və tənzimlənməsi tədbirləri çərçivəsində, habelə bu Qanunla müəyyən edilmiş icazələrin (idxal və ixrac icazələrinin verilməsi istisna olmaqla) verilməsi üçün götürülmüş nümunələrin tədqiqi (sınağı) yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müsbət rəy verilmiş və akkreditasiyadan keçmiş laboratoriyalarda aparılmalıdır.

24.3. Müxtəlif laboratoriyalarda aparılan eyni sınaq nəticələri arasında müqayisənin aparılması və sınaq nəticələrinin dəqiqliyinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində istinad (referens) laboratoriyaları yaradılır.

**Maddə 25. Zərərli orqanizmlərin və canlı bioloji mübarizə agentlərinin idxalı, daşınması, saxlanması, çoxaldılması və istifadəsi**

25.1. Zərərli orqanizmlərin və canlı bioloji mübarizə agentlərinin sınaq, elmi-tədqiqat, tədris məqsədilə Azərbaycan Respublikasına idxalı, daşınması, saxlanması, çoxaldılması və istifadəsini həyata keçirərkən bitkiçilik subyektləri, elmi-tədqiqat qurumları və tədris müəssisələri aşağıdakı şərtləri yerinə yetirməlidir:

25.1.1. bu Qanuna uyğun olaraq qeydiyyatdan keçməlidir;

25.1.2. sınaq, elmi-tədqiqat, tədris məqsədilə zərərli orqanizmlərin idxalı, daşınması, saxlanması, çoxaldılması və istifadəsini həyata keçirərkən zərərli orqanizmin ətrafa yayılması, çoxalması, məskunlaşması hallarına yol verməməli və buna görə məsuliyyət daşımalıdırlar;

25.1.3. sirayətlənmiş bitkilərin, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi, utilizasiyası və ya məhv edilməsi üçün müvafiq infrastruktura və sistemə, yaxud belə infrastruktur və sistemdən istifadə imkanına malik olmalıdır.

## 5-ci fəsil

## Bitkiçilik subyektlərinin hüquq və vəzifələri

### Maddə 26. Bitki sağlamlığı sahəsində bitkiçilik subyektlərinin hüquqları

26.1. Bitkiçilik subyektləri aşağıdakı hüquqlara malikdir:

26.1.1 bu Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərin yerinə yetirilməsi məqsədilə dövlət orqanlarından və qurumlarından metodiki köməklik, məsləhət almaq və vəziyyəti qiymətləndirmək üçün dövlət orqanlarına və qurumlarına müraciət etmək;

26.1.2 bu Qanuna uyğun olaraq müəyyən edilmiş qaydada bitki sağlamlığı sahəsində normativ hüquqi aktların işlənilib hazırlanmasında iştirak etmək;

26.1.3 bitki sağlamlığının təmin edilməsi sahəsində qabaqcıl təcrübələri və beynəlxalq standartları tətbiq etmək;

26.1.4 inzibati qaydada və məhkəməyə şikayət etmək;

26.1.5 bu Qanunla müəyyən edilən digər hüquqlara malik olmaq.

### Maddə 27. Bitki sağlamlığı sahəsində bitkiçilik subyektlərinin vəzifələri

27.1. Bitki sağlamlığı sahəsində bitkiçilik subyektlərinin vəzifələri aşağıdakılardır:

27.1.1. hər hansı karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizm aşkarladıqda, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal məlumat vermək və zərərli orqanizmin identifikasiya olunması üçün bitki və bitkiçilik məhsullarının, əkin və səpin materiallarının və zərərli orqanizmlərin nümunələrini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

27.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risk təhlili nəticələri əsasında zərərli orqanizmlə bağlı risklərin idarə edilməsinə dair çıxarılan qərarların icrasını həyata keçirmək;

27.1.3. öz ərazisində aşkarlanan zərərli orqanizmlə bağlı zərərsizləşdirmə tədbirlərini həyata keçirmək, zərərsizləşdirmə tədbirləri səmərə vermədikdə və ya tətbiqi adekvat olmadıqda, yoluxmuş bitki və bitkiçilik məhsullarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndəsinin iştirakı ilə məhv etmək;

27.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarında nəzərdə tutulduğu halda, aşkarlanan karantin tətbiq edilən zərərli orqanizmlə yoluxmuş bitki, bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların geri çağırılmasını, zərərsizləşdirilməsini və ya məhv edilməsini təmin etmək, karantin nəzarətində olan materiallarla təchiz etdiyi subyektləri zərərli orqanizmin aşkarlanması və bununla bağlı həmin subyektlər tərəfindən materialların saxlandığı, daşındığı və satıldığı yerlərdə həyata keçirilməli olan mübarizə tədbirləri haqqında məlumatlandırmaq;

27.1.5. karantin elan olunmuş ərazilərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən fitosanitar tədbirlərinin və məhdudiyyətlərin icrasını həyata keçirmək;

27.1.6. bitkiçilik obyektlərində fitosanitar xidməti subyektlərini cəlb etməklə zərərli orqanizmlərlə bağlı mübarizə məqsədilə dövri profilaktik və ləğvetmə tədbirləri aparmaq;

27.1.7. karantin nəzarətində olan materialların xüsusi təyin edilmiş və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyata alınmış yerlərdən kənarda zərərsizləşdirilməsinə yol verməmək;

27.1.8. xüsusi təhlükəli zərərli orqanizmlərin aşkarlanması, yayılması, çoxalması, habelə onlarla mübarizə məqsədilə həyata keçirilən tədbirlər haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

27.1.9. bu Qanuna uyğun olaraq bitkiçilik subyektlərinin və onların obyektlərinin qeydiyyata alınmasını təmin etmək, qeydiyyatsız fəaliyyət göstərməmək;

27.1.10. onları bitki və bitkiçilik məhsulları, əkin və səpin materialları və digər karantin nəzarətində olan materiallarla təchiz edən və ya onların təchiz etdiyi subyektləri müəyyən etməyə imkan verən izləmə sisteminə və prosedurlarına malik olmaq və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi əsasında izləmə sisteminə dair sənədləri və məlumatları həmin orqana təqdim etmək;

27.1.11. ilkin istehsalla məşğul olduqda və bitkiçilik məhsullarının növlərinə görə ərazisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən həddən çox olan əraziyə malik olduqda, bitki sağlamlığına daxili nəzarət sisteminə malik olmaq, nəzarətin nəticələrinin uçotunu aparmaq və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tələb etdikdə həmin məlumatları təqdim etmək, habelə bitki sağlamlığına cavabdeh şəxsləri müəyyənləşdirmək və həmin şəxslərin bu Qanunda müəyyən edilmiş tələblərə əməl etməsini təmin etmək;

27.1.12. öz obyektlərində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən fitosanitar monitorinqlərin, yoxlamaların, qiymətləndirmələrin aparılması üçün bitkiçilik obyektlərinə maneəsiz girişinə, obyektə baxış keçirmələrinə və məhsullardan nümunələr götürmələrinə şərait yaratmaq və qanunvericiliyə uyğun olaraq tələb etdikləri sənədləri onlara təqdim etmək;

27.1.13. bu Qanundan irəli gələn digər vəzifələri yerinə yetirmək.

## 6-cı fəsil

## Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin, onların istehsalı (emalı) və dövriyyəsi ilə məşğul olan obyektlərin qeydiyyatı

### Maddə 28. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatı

28.1. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatı onların bioloji, gigiyenik-toksikoloji, ekotoksikoloji və ekoloji cəhətdən mümkün təsirlərinin qiymətləndirilməsi və istifadə reqlamentlərinin işlənib hazırlanması məqsədilə aparılır.

28.2. Azərbaycan Respublikasının ərazisində bitki mühafizəsi vasitələrinin istehsalına, idxalına, dövriyyəsinə və istifadəsinə həmin məhsullar dövlət qeydiyyatına alındıqdan sonra icazə verilir. Bu Qanunun 28.23-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmamış bitki mühafizə vasitələrinin idxalı, istehsalı, dövriyyəsi və istifadəsi qadağandır.

28.3. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatına alınması üçün onların tərkibində olan aktiv maddələr, sinergistlər və neytrallaşdırıcı vasitələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən siyahıda mövcud olmalı və tərkibində istifadəsi qadağan edilmiş aktiv maddələr və koformulyantlar olmamalıdır.

28.4. Bitki mühafizə vasitələrinin tərkibində və ya ayrılıqda mövcud olan aktiv maddə, sinergistlər və neytrallaşdırıcı vasitələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən siyahıda mövcud olmadıqda, onların siyahıya əlavə edilməsi üçün cavabdeh subyektlər müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) müraciət etməlidirlər.

28.5. Tərkibində siyahıda mövcud olmayan aktiv maddələr, sinergistlər və neytrallaşdırıcı vasitələr olan bitki mühafizə vasitələrinin dövlət qeydiyyatı onların tərkibində olan aktiv maddələr, sinergistlər və neytrallaşdırıcı vasitələrin siyahıya əlavə edilməsi üçün aparılan qiymətləndirmələrlə eyni anda həyata keçirilir.

28.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq sazişləri, beynəlxalq və regional təşkilatların tövsiyələrini və bitkiçilik subyektlərinin müraciətlərini nəzərə almaqla istifadəsinə yol verilən aktiv maddələrin, sinergistlərin, neytrallaşdırıcı vasitələrin (antidotların), habelə istifadəsi qadağan edilmiş aktiv maddələrin və koformulyantların siyahısını bu Qanunun 28.8-ci maddəsinə əsasən yaradılan Ekspert Şurasına üzv olan müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla təsdiq edir, mütəmadi əsasda yeniləyir və öz internet resurslarında yerləşdirir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aktiv maddələrin, sinergistlərin və neytrallaşdırıcı vasitələrin istifadəsinə yol verilən aktiv maddələrin, sinergistlərin və neytrallaşdırıcı vasitələrin siyahısına əlavə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

28.7. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatı aşağıdakı mərhələlərdən ibarətdir:

28.7.1. sənəd ekspertizası - məhsulun təsiredici maddələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən siyahıda mövcudluğunun, habelə bitki mühafizə vasitələrinin sınağı və dövlət qeydiyyatının aparılması qaydasında müəyyən edilən sənədlərin mövcudluğunun və düzgünlüyünün ekspertizası;

28.7.2. laboratoriya sınağı - bitki mühafizə vasitələrinin tərkibinin təqdim edilən sənədlərlə uyğunluğunun, keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması məqsədilə akkreditasiya edilmiş laboratoriyalarda sınağı;

28.7.3. istehsal sınağı - respublikanın müxtəlif təbii iqlim zonalarında bitki mühafizə vasitələrinin bioloji və iqtisadi səmərəliliyinin təsdiqlənməsi, ekoloji təsirlərinin qiymətləndirilməsi və normativlərinin dəqiqləşdirilməsi, qalıq miqdarının və təhlükəli xüsusiyyətlərinin (metabolitlərinin) müəyyən edilməsi məqsədilə istehsalatda tətbiqi.

28.8. Bitki mühafizə vasitələrinin sənəd ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır və rəy üçün müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət yaradılmış Ekspert Şurasına təqdim edilir. Ekspert Şurası sənədləri təhlil edir, çatışmazlıqlar və imtina üçün əsas olmadıqda, bitki mühafizə vasitəsinin sınağa qəbul edilməsi barədə qərar qəbul edir. Bitki mühafizə vasitələrinin sənəd ekspertizasına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

28.9. Ekspert Şurasının Əsasnaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bitki mühafizə vasitələrinin dövlət qeydiyyatının təşkilində aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət ekspert bankı yaradır.

28.10.Bitki mühafizə vasitələrinin laborator sınağının aparılması üçün məhsulun istehsalçısı və ya onun səlahiyyətli nümayəndəsi müvafiq bitki mühafizə vasitəsinin məhsul nümunəsini, laboratoriya sınağında istifadə olunan aktiv maddənin analitik standartını və sınaq metodlarını təmin etməlidir. Laborator sınaq məqsədilə məhsul nümunəsinin idxal olunması üçün qeydiyyatçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) məhsulun idxalına rəy verir və real vaxt rejimində gömrük

orqanına ötürür.

28.11. Bitki mühafizə vasitələrinin laboratoriya sınağı üçün təqdim olunan məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiqə (sınağa) görə dövlət qeydiyyatı üçün müraciət edən subyektdən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur. Götürülmüş nümunələrin akkreditasiya edilmiş özəl sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq ) üçün xidmət haqqı bitkiçilik subyektləri ilə laboratoriya arasında qarşılıqlı müqavilə əsasında müəyyən edilir.

28.12.Bitki mühafizə vasitələrinin istehsal sınağı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hazırlanmış siyahıda olan özəl və ya dövlət elmi-tədqiqat müəssisələrində aparılır. İstehsal sınağında iştirak edən elmi-tədqiqat müəssisələrinə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Bitki mühafizə vasitələrinin gigiyenik-toksikoloji, yanğın təhlükəsizliyi göstəriciləri üzrə həmin bitki mühafizə vasitəsinin istehsalçı tərəfindən aparılan sınağına dair dosye təqdim olunur və həmin dosye əsasında bu Qanunun 29.17-ci maddəsinə əsasən aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən nəzərə alınır.

28.13.Bitki mühafizə vasitələrinin istehsal sınağına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

28.14.Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatı aşağıdakı hallarda onların istehsal sınağı aparılmadan həyata keçirilir:

28.14.1. bitki mühafizə vasitəsinin tərkibi yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən siyahıda olan hər hansı bir aktiv maddədən ibarət olduqda və həmin aktiv maddənin istehsalçı tərəfindən aparılan sınağına dair dosye təqdim olunduqda;

28.14.2. bitki mühafizə vasitəsinin istixanalarda, məhsul yığımından sonra bağlarda, bitki və bitkiçilik məhsullarının saxlandığı boş sahələrdə, konteynerlərdə, nəqliyyat vasitələrində, toxumlarda istifadəsi nəzərdə tutulduqda və həmin bitki mühafizə vasitəsinin istehsalçı tərəfindən aparılan sınağına dair dosye təqdim olunduqda;

28.14.3. tutucu tələlərin tərkibində yalnız öldürücü təsirə malik olmayan atraktant, feromon və ya digər maddələr olduqda;

28.14.4. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş Azərbaycan Respublikası ilə eyni və oxşar iqlim zonasında yerləşən ölkələrdə qeydiyyatda olduqda və həmin ölkələrin qeydiyyat sistemi Azərbaycan Respublikasının qeydiyyat sisteminə ekvivalent hesab edildikdə. Azərbaycan Respublikası ilə eyni və oxşar iqlim zonasında yerləşən ölkələrin qeydiyyat sisteminin Azərbaycan Respublikasının qeydiyyat sistemi ilə ekvivalent hesab edilməsinin qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

28.15. Laboratoriya və istehsal sınağında, elmi-tədqiqat işlərində istifadə etmək məqsədilə xarici ölkələrdən gətirilən bitki mühafizə vasitələrinin yol verilən miqdarı və gətirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

28.16. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatı müraciət edildiyi tarixdən 18 aydan gec olmamaqla həyata keçirilir.

28.17. Bitki mühafizə vasitələrinin laborator və istehsal sınaqlarının nəticələri müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) təhlil etmək üçün təqdim edilir və aparılan təhlil nəticəsində hər hansı çatışmazlıqlar aşkarlanmadıqda, dövlət

qeydiyyatına alınmasının məqsədəuyğunluğuna dair rəy verilməsi üçün Ekspert Şurasının üzvlərinə təqdim edilir. Ekspert Şurasının üzvləri bitki mühafizə vasitələrinin səmərəliliyi və gigiyenik-toksikoloji, ekoloji, yanğın təhlükəsizliyi ilə bağlı təmsil etdikləri dövlət orqanlarının (qurumlarının) səlahiyyətlərinə aid olan məsələlər üzrə rəy verirlər.

28.18. Bitki mühafizə vasitəsi dövlət qeydiyyatına alınarkən onun toksiklik dərəcəsi (çox yüksək, yüksək, orta və aşağı) müəyyən edilir və toksiklik dərəcəsinə uyğun olaraq onun peşəkar və ya qeyri-peşəkar istifadəçi tərəfindən istifadə edilməsi müəyyən edilir.

28.19. Bitki mühafizə vasitələri aşağıdakı şərtlər yerinə yetirildikdə dövlət qeydiyyatına alınır:

28.19.1. tərkibindəki aktiv maddələr, sinergistlər və neytrallaşdırıcı vasitələr (antidotlar), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan siyahıya daxil edildikdə;

28.19.2. tərkibində istifadəsi qadağan edilən aktiv maddələr, sinergistlər və neytrallaşdırıcı vasitələr və koformulyantlar olmadıqda;

28.19.3. təyinatı üzrə yüksək bioloji səmərəliliyə malik olduqda;

28.19.4. insan və heyvan sağlamlığına zərərli təsirlərini neytrallaşdırmaq mümkün olduqda;

28.19.5. bitkilərə və bitkiçilik məhsullarına, ətraf mühitə və biomüxtəlifliyə davamlı mənfi təsir göstərmədiyi sübut olunduqda;

28.19.6. istifadə təyinatında nəzərdə tutulmayan canlı orqanizmlərə mənfi təsirlərinin qarşısının alınması mümkün olduqda;

28.19.7. tərkibindəki aktiv maddələr, sinergistlər, neytrallaşdırıcı vasitələr (antidotlar) və digər kənar qarışıqların, habelə onların qida və yem məhsullarında qalıqlarının miqdarını və xüsusiyyətlərini toksikoloji, ekotoksikoloji və ətraf mühitin mühafizəsi baxımından müvafiq laboratoriya metodları ilə müəyyən etmək mümkün olduqda;

28.19.8. qida və ya yem kimi istifadə edilən bitki və ya bitkiçilik məhsullarında qalıq miqdarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yol verilən hədləri müəyyən olunduqda.

28.20. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatına alınmasına görə Şəhadətnamənin verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

28.21. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alınmış bitki mühafizə vasitələri Bitki Sağlamlığı Reyestrinə daxil edilir, öz internet resurslarında yerləşdirilir və ərizəçiyə qeydiyyat şəhadətnaməsi verilir.

28.22. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatının qüvvədəolma müddəti 10 (on) il müəyyən edilir və bu müddət başa çatdıqdan sonra onlar bitki mühafizə vasitələrinin sınağı və dövlət qeydiyyatına alınması qaydasına uyğun yenidən qeydiyyatdan keçirilir.

28.23. Dövlət qeydiyyatına alınmamış bitki mühafizə vasitələrinin idxal və ixracına aşağıdakı hallarda yol verilir:

28.23.1. elmi-tədqiqat işlərində istifadə olunduqda və satış hüququ olmadan sərgilərdə nümayiş etdirildikdə;

28.23.2. sınaq üçün gətirildikdə;

28.23.3. karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınması məqsədilə onların istehsalçı ölkədə qeydiyyatını və istifadəsini təsdiq edən sənədlər olduqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında.

28.24. Dövlət qeydiyyatına alınmamış bitki mühafizə vasitələrinin idxalı və tətbiqi

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nəzarəti altında həyata keçirilir.

28.25. Dövlət qeydiyyatına alınmamış bitki mühafizə vasitələrinin idxalına və istifadəsinə icazənin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

28.26. Azərbaycan Respublikasında bitki mühafizə vasitəsinin istehsalında istifadə məqsədilə idxal olunmuş və ya istehsal olunan xammalın dövlət qeydiyyatına alınması tələb olunmur. Həmin xammalın idxalına məhsulun təhlükəsizlik və keyfiyyət göstəricilərinin ekspertizasının müsbət nəticələri nəzərə alınmaqla icazə verilir və xammalın təyinatı üzrə istifadəsinə görə idxalçı məsuliyyət daşıyır.

28.27. Bitki mühafizəsi vasitəsinin təhlükəsizliyi barədə yeni məlumatlar daxil olduqda, o cümlədən müvafiq beynəlxalq sazişlər və təşkilatlar tərəfindən tərkibindəki aktiv maddələr istifadəsi qadağan olunmuş maddələr siyahısına daxil edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)onların qeydiyyatını ləğv edir və tətbiqini qadağan edir.

28.28. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) insan və heyvan sağlamlığına, ətraf mühitə təhlükəliliyinə dair sübutlar olduqda, bəzi aktiv maddələrin tətbiqini qadağan edə, müəyyən bitki və ya bitki qruplarında istifadəsini məhdudlaşdıra və ya xüsusi şərtlər əsasında istifadəsinə icazə verə bilər.

28.29. Bitki mühafizə vasitələrinin dövlət qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsi "Lisenziyalar və icazələr" haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

28.30. Bitki mühafizə vasitəsinin tərkibi və istehsalçısı eyni qalmaq şərti ilə adında dəyişiklik edildikdə, qeydiyyatçının müraciəti əsasında həmin bitki mühafizə vasitəsinin dövlət qeydiyyatının yenidən rəsmiləşdirilməsi həyata keçirilir.

28.31. Bitki mühafizə vasitələrinin sınağı və dövlət qeydiyyatına alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 29. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatı**

29.1. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatı onların təyinatı üzrə istifadəsi zamanı səmərəliliyinin, keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi və partlayış təhlükəsi ilə bağlı risklərin azaldılması məqsədilə həyata keçirilir.

29.2. Azərbaycan Respublikasının ərazisində aqrokimyəvi maddələrin istehsalına, idxalına, dövriyyəsinə və istifadəsinə həmin məhsullar dövlət qeydiyyatına alındıqdan sonra icazə verilir. Bu Qanunun 29.16-cı maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmamış aqrokimyəvi maddələrin idxalı, istehsalı, dövriyyəsi və istifadəsi qadağandır.

29.3. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatı aşağıdakı mərhələlərdən ibarətdir:

29.3.1. sənəd ekspertizası – aqrokimyəvi maddələrin dövlət qeydiyyatının aparılması qaydasında müəyyən edilən sənədlərin mövcudluğunun və düzgünlüyünün ekspertizası;

29.3.2. laboratoriya sınağı – aqrokimyəvi maddələrin tərkibinin təqdim edilən sənədlərlə uyğunluğunun, keyfiyyət göstəricilərinin yoxlanılması məqsədilə akkreditasiya edilmiş laboratoriyalarda sınağı;

29.3.3. partlayıcı xüsusiyyətə malik aqrokimyəvi maddələr olduqda, onların partlamaya davamlılıq sınağı – tərkibindəki azotun miqdarı 28 faizdən çox olan ammonium nitrat əsaslı gübrələrin partlayış müqavimətinə dair sınaqların aparılması və gübrənin partlayış təhlükəsi törətmədiyinin təsdiq edilməsi;

29.3.4. mikrobioloji tərkibli aqrokimyəvi maddələr olduqda, onların səmərəlilik sınağı - bitkilərin inkişafına təkan verən mikrobioloji tərkibli gübrələrin Azərbaycan Respublikasında və ya oxşar coğrafi en dairələrində yerləşən digər ölkələrin elmi-tədqiqat müəssisələri tərəfindən sınaqların aparılması.

29.4. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir. Partlayıcı xüsusiyyətə malik və mikrobioloji tərkibli aqrokimyəvi maddələrin dövlət qeydiyyatı bu Qanunun 29.8-ci maddəsinə əsasən yaradılmış Ekspert Şurası üzvlərinin müsbət rəyi olduqda həyata keçirilir.

29.5. Aqrokimyəvi maddələrin sənəd ekspertizasına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən xidmət haqqı tutulur.

29.6. Aqrokimyəvi maddələrin laborator sınağının aparılması üçün məhsulun istehsalçısı və ya onun səlahiyyətli nümayəndəsi aqrokimyəvi maddənin nümunəsini, laboratoriya sınağında istifadə olunan aktiv maddənin analitik standartını və sınaq metodlarını təmin etməlidir. Laborator sınaq məqsədilə məhsul nümunəsinin idxal olunması üçün qeydiyyatçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) məhsulun idxalına rəy verir və real vaxt rejimində gömrük orqanına ötürür.

29.7. Aqrokimyəvi maddələrin laboratoriya sınağı üçün təqdim olunan məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiqə (sınağa) görə dövlət qeydiyyatı üçün müraciət edən subyektdən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur. Götürülmüş nümunələrin akkreditasiya edilmiş özəl sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq ) üçün xidmət haqqı bitkiçilik subyektləri ilə laboratoriya arasında qarşılıqlı müqavilə əsasında müəyyən edilir.

29.8. Laboratoriya sınağında, səmərəlilik və partlayışa davamlılıq sınağında, elmi-tədqiqat işlərində istifadə etmək məqsədilə xarici ölkələrdən gətirilən aqrokimyəvi maddələrin yol verilən miqdarı və gətirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

29.9. Bu Qanunun 30.3.3-cü və 30.3.4-cü maddələrində nəzərdə tutulan sınaqlar aqrokimyəvi maddənin dövlət qeydiyyatı üçün müraciət edilməmişdən əvvəl elmi-tədqiqat müəssisələrində aparılır və sınaqların nəticələrinə dair hesabatlar qeydiyyat üçün müraciət edilərkən təqdim olunan sənədlərə əlavə edilir.

29.10.Aqrokimyəvi maddələrin sınağına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

29.11. Aqrokimyəvi maddələr aşağıdakı şərtlərə cavab verdikdə dövlət qeydiyyatına alınır:

29.11.1. fitosanitar norma və qaydalarla müəyyən edilmiş minimum keyfiyyət göstəricilərinə cavab verdikdə;

29.11.2. bu Qanunla və Qanundan irəli gələn müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş etiketləməyə dair tələblərə cavab verdikdə;

29.11.3. aqrokimyəvi maddəyə dair aparılan sənəd ekspertizasının, laborator sınaqların və bu Qanunun 29.3.3-cü və 29.3.4-cü maddələrində nəzərdə tutulan sınaqların müsbət nəticələri əldə olunduqda.

29.12. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatı 3 aydan gec olmamaqla həyata keçirilir.

29.13. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatına alınmasına görə şəhadətnamənin verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

29.14. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alınmış aqrokimyəvi maddələr Bitki Sağlamlığı Reyestrinə daxil edilir, öz internet resurslarında yerləşdirilir və ərizəçiyə qeydiyyat şəhadətnaməsi verilir.

29.15. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatının qüvvədəolma müddəti 10 (on) il müəyyən edilir və bu müddət başa çatdıqdan sonra onlar aqrokimyəvi maddələrin dövlət qeydiyyatına alınması qaydasına uyğun yenidən qeydiyyatdan keçirilir.

29.16. Dövlət qeydiyyatına alınmamış aqrokimyəvi maddələrin idxal və ixracına aşağıdakı hallarda yol verilir:

29.16.1. elmi-tədqiqat işlərində istifadə olunduqda və satış hüququ olmadan sərgilərdə nümayiş etdirildikdə;

29.16.2. sınaq üçün gətirildikdə;

29.16.3. kənd təsərrüfatı sahələrinin hər hansı aqrokimyəvi maddələrlə təchizatında ciddi çatışmazlıqlar yarandıqda, onların istehsalçı ölkədə qeydiyyatını və ya istifadəsini təsdiq edən sənədlər olduqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında.

29.17. Dövlət qeydiyyatına alınmamış aqrokimyəvi maddələrin idxalına və istifadəsinə icazənin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

29.18. Dövlət qeydiyyatına alınmamış aqrokimyəvi maddələrin idxalı və tətbiqi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nəzarəti altında həyata keçirilir.

29.19. Aqrokimyəvi maddələrin dövlət qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsi "Lisenziyalar və icazələr" haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

29.20. Aqrokimyəvi maddələrin tərkibi və istehsalçısı eyni qalmaq şərti ilə adında dəyişiklik edildikdə, qeydiyyatçının müraciəti əsasında həmin bitki mühafizə vasitəsinin dövlət qeydiyyatının yenidən rəsmiləşdirilməsi həyata keçirilir.

29.21. Aqrokimyəvi maddələrin sınağı və dövlət qeydiyyatına alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### Maddə 30. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalı (emalı) və dövriyyəsi ilə məşğul olan subyektlərin və onların obyektlərinin qeydiyyatı

30.1. Azərbaycan Respublikasının ərazisində bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalı (emalı) və dövriyyəsi (idxalı, ixracı, saxlanması və satışı) ilə məşğul olan subyektlər və (və ya) onların obyektləri qeydiyyat üçün tələb olunan məlumatlar təqdim edildiyi halda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən fitosanitar norma və qaydaların tələblərinə uyğunluğu qiymətləndirilməklə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınır.

30.2. Subyektlərin və (və ya) onların obyektlərinin qeydiyyatı üçün tələb olunan məlumatları əldə etmək üçün dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə edilir.

30.3. Qeydiyyata alınmış subyektlər və (və ya) obyektlər Bitki Sağlamlığı Reyestrinə daxil edilir və onlara Reyestrdən elektron və ya yazılı çıxarış verilir.

30.4. Subyektlərin və ya onların obyektlərinin fəaliyyəti dövründə qeydiyyat mərhələsində verilmiş məlumatlarda dəyişiklik olduqda, habelə onların fəaliyyət sahəsi dəyişdikdə və ya öz fəaliyyətini dayandırdıqda, onlar bu haqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) məlumatlandırmalıdır.

30.5. Subyektlər sahibkarlıq fəaliyyətinə xitam verdikdə və ya bir ildən çox bu fəaliyyətini dayandırdıqda həmin subyektlərin və onların obyektlərinin qeydiyyatı ləğv olunur.

30.6. Subyektlərin və onların obyektlərinin qeydiyyatı və Reyestrin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

## 7-ci fəsil

## Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalına (emalına) və dövriyyəsinə dair tələblər

### Maddə 31. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalı (emalı), qablaşdırılması, etiketlənməsi

31.1. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalçısı (emalçısı) bu Qanunda nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyata alınmalıdır.

31.2. Bitki mühafizə vasitələrinin istehsalında (emalında) yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən siyahıya daxil edilmiş aktiv maddələrdən, sinergistlərdən və neytrallaşdırıcı vasitələrdən istifadə edilməli və istifadəsi qadağan edilmiş aktiv maddələrin, koformulyantların istifadəsinə yol verilməməlidir.

31.3. Aqrokimyəvi maddələrin istehsalında (emalında) istifadə edilən maddələr fitosanitar norma və qaydalarla müəyyən edilmiş təhlükəsizlik və minimum keyfiyyət göstəricilərinə cavab verməlidir.

31.4. Bitki mühafizə vasitəsinin və aqrokimyəvi maddənin istehsalını (emalını) həyata keçirən subyekt bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin keyfiyyətinə və təhlükəsizliyinə daxili nəzarət sisteminə malik olmalı, nəzarətin nəticələrinin uçotunu aparmalı və müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tələb etdikdə həmin məlumatları təqdim etməlidir.

31.5. Bitki mühafizə vasitələrinin istehsalı (emalı) fitosanitar norma və qaydaların tələblərinə uyğun, texniki reqlamentlər, standartlar və ya texniki şərtlər əsasında təşkil edilir.

31.6. Azərbaycan Respublikasında istehsal (emal) olunmuş, o cümlədən respublika ərazisinə idxal edilmiş və tətbiqinə icazə verilmiş bitki mühafizə vasitələri bu Qanunun, bu Qanundan irəli gələrək qəbul edilən qaydaların və fitosanitar norma və qaydaların tələblərinə uyğun qablaşdırılmalı və etiketlənməlidir. İstehsal (emal) olunmuş aqrokimyəvi maddələr qablaşdırıldıqda etiket məlumatları qablaşdırma materialının üzərində, qablaşdırılmadan dövriyyəyə buraxıldıqda isə, onu müşayiət edən sənədlərdə əks olunmalıdır.

31.7. Azərbaycan Respublikasına idxal olunan və istehsal (emal) olunan bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin üzərindəki etiket məlumatları, məhsulun tərkibi, istifadəyə yararlılıq müddəti, istifadə təyinatı, məhsuldan istifadə və

saxlanma qaydaları başqa dillərdə olarsa, onların Azərbaycan dilinə tərcüməsi də təmin edilməlidir.

31.8. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qablaşdırılması və etiketlənməsinə dair tələblər fitosanitar norma və qaydaları ilə müəyyən edilir.

**Maddə 32. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin saxlanması, daşınması və satışı**

32.1. Bitki mühafizə vasitələri bu Qanuna və Qanundan irəli gələrək qəbul edilmiş normativ hüquqi aktlarda müəyyən edilmiş tələblərə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyata alınmış saxlanc yerlərində saxlanmalıdır. Bitki mühafizə vasitələrinin qablaşdırılmadan saxlanılmasına yol verilmir.

32.2. Bitki mühafizə vasitələrinin saxlanması zamanı sanitariya, ekoloji, toksikoloji, partlayış və yanğın təhlükəsizliyi sahəsində mövcud olan qanunvericilik aktlarının tələblərinə riayət edilməlidir.

32.3. Bitki mühafizə vasitələrinin saxlandığı anbarların ətrafı hasarlanmış olmalı, qapısı bağlı saxlanılmalı və ətraf mühitin (torpağın, yeraltı suların, havanın və s.) çirklənməsinə yol verilməməlidir. Saxlanma sahəsi davamlı təmiz hava ilə təmin edəcək gücə malik ventilyasiya qurğuları ilə təchiz edilməli, anbarın müvafiq sahələrində atmosferə birbaşa çıxışı olan təbii havalandırma sistemləri quraşdırılmalıdır.

32.4. Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr bir-birindən təcrid edilmiş ayrı otaqlarda, qapıları bağlı vəziyyətdə saxlanılmalıdır.

32.5. Yüksək toksiki-ekoloji təhlükəli bitki mühafizə vasitələri digər bitki mühafizə vasitələrilə, partlayıcı tərkibə malik olan aqrokimyəvi maddələrin isə digər aqrokimyəvi maddələrlə yanaşı saxlanılması yolverilməzdir.

32.6. Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin daşınması onların təhlükəsizliyini təmin edən və ilkin xüsusiyyətlərini qoruyan şəraitdə, ətraf mühitin qorunması təmin olunmaqla və fitosanitar nəzarət sahəsində müəyyən olunmuş tələblərə uyğun həyata keçirilməlidir. Bu məhsulların daşınmasında istifadə olunan nəqliyyat vasitələri asan təmizlənə bilən olmalıdır. Nəqliyyat vasitəsilə ancaq istehsal (emal) müəssisəsində qablaşdırılmış və ya təhlükəsiz bağlanan, bütövlüyü pozulmamış taralara yığılmış bitki mühafizə vasitələri daşınmalıdır.

32.7. Bitki mühafizə vasitələrinin aqrokimyəvi maddələrlə birlikdə daşınması zamanı, bu məhsullar fiziki-kimyəvi xassələri nəzərə alınmaqla sızmayan materialdan olan arakəsmələrlə ayrılmalı və təhlükəsiz bağlanılması təmin edilməlidir.

32.8. Bitki mühafizə vasitələri daşınan və ya daşındıqdan sonra təmizlənməyən nəqliyyat vasitəsində insanların, qida və yem məhsullarının, içməli suyun və digər ümumi insan istehlakı və istifadəsi üçün nəzərdə tutulan məhsulların (əczaçılıq məhsulları, tütün və ya geyim) daşınması yolverilməzdir.

32.9. Bitki mühafizə vasitələrinin yüklənməsi və boşaldılması işləri fitosanitar norma və qaydaların, texniki reqlamentlərin tələblərinə uyğun yerinə yetirilməli, taraların zədələnməsinə, zəhərli kimyəvi maddələrin dağıdılmasına yol verilməməlidir.

32.10. Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin satışı fitosanitar nəzarət sahəsində qanunvericiliyin tələblərinə cavab verən, havalandırma sistemi, məhsulların saxlanc sahəsi olan, yetərincə işıqlandırılmış, içərisi quru, dam örtüyü bütöv, divarları, tavanı su sızdırmaya davamlı materiallarla üzlənmiş yerlərdə həyata keçirilməlidir.

32.11. Bitki mühafizə vasitəsinin satıcısı bu Qanunun 34.1-ci maddəsində nəzərdə tutulan qaydada təlimlərə cəlb edilməlidir.

32.12. Bitki mühafizə vasitələrinin satışı yalnız istehsal (emal) zamanı qablaşdırılmış və ya təhlükəsiz bağlanan tarada və etiketlənmiş formada həyata keçirilməlidir.

32.13. Yararlılıq müddəti bitmiş və ya keyfiyyət göstəricilərini itirmiş bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr ayrıca saxlanılmaqla, satışdan kənarlaşdırılmalı və dövriyyədən çıxarılması təmin edilməlidir.

32.14. Bitki mühafizə vasitələrinin satışı zamanı aşağıdakılar qadağandır:

33.14.1. 18 yaşına çatmamış şəxslərə bitki mühafizə vasitəsini satmaq;

33.14.2. peşəkar istifadə üçün nəzərdə tutulmuş bitki mühafizə vasitələrini qeyri-peşəkar istifadəçilərə, habelə sertifikat əldə etmədən fəaliyyət göstərən peşəkar istifadəçilərə və məsləhətçilərə satmaq;

33.14.3. qablaşdırması zədələnmiş və ya etiketlənməmiş, habelə etiketi oxunaqsız, zədələnmiş, müdaxilə edilmiş və ya düzəldilmiş (qismən silinmiş, əlavə edilmiş) bitki mühafizə vasitəsini satmaq;

33.14.4. bitki mühafizə vasitələrini başqa qablaşdırmaya köçürmək və ya yenidən qablaşdırmaq.

32.15. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin saxlanmasına, daşınmasına və satışına dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 33. Bitki mühafizə vasitələrinin aqrokimyəvi maddələrin idxalı və ixracı**

33.1. Azərbaycan Respublikasında bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı bu Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiy orqan (qurum) tərəfindən qeydiyyata alınmış hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilir.

33.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış, mənşəyi və keyfiyyəti barədə sənədləri olan, qablaşdırılmış və etiketləşdirilmiş bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalına, ixracına və təkrar ixracına icazə verilir.

33.3. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin dövlət qeydiyyatından keçmədən idxalına yalnız bu Qanunun 29.23-cü və 30.16-cı maddələrində nəzərdə tutulduğu hallarda icazə verilir.

33.4. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalını, ixracını və təkrar ixracını həyata keçirən fiziki və hüquqi şəxslər həmin məhsulların uçotunu aparmalı, məhsulların izlənilməsi üçün onların identikləşdirilməsini təmin etməli, uçot məlumatlarını və sənədləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməli, habelə həmin uçot məlumatlarının və sənədlərin 5 (beş) il müddətində saxlanılmasına cavabdehlik daşımalıdırlar.

33.5. Son istifadə tarixinin başa çatmasına 3 ay və daha az müddət qalmış bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin ölkəyə idxalına yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında icazə verilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 3 ay və daha az müddət qalmış bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin ölkəyə idxalına dair qərar verərkən həmin maddələrin ölkə ərazisində ehtiyatlarının miqdarı, tətbiq olunduğu bitkilərdə zərərli orqanizmlərlə mübarizə üçün alternativ maddələrin mövcudluğu, bitkiçilik subyektləri tərəfindən həmin maddələrin qalan yararlılıq müddəti ərzində tətbiq olunmasının mümkünlüyü, bitkiçilik subyektlərinin özləri tərəfindən birbaşa gətirilməsi kimi amilləri nəzərə alır.

33.6. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin əl yüklərində, şəxsi baqajlarda və poçt göndərişləri vasitəsilə ölkəyə gətirilməsinə yol verilmir.

33.7. Azərbaycan Respublikasının ərazisinə bitki mühafizə vasitəsi və aqrokimyəvi maddə idxal etmək istəyən idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi həmin

məhsullar ərazisinə gətirilməzdən əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada və müəyyən edilmiş müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada bildiriş göndərməlidir.

33.8. Azərbaycan Respublikasının ərazisinə bitki mühafizə vasitələrini idxal etmək istəyən idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi bu Qanunun 33.7-ci maddəsində nəzərdə tutulmuş bildirişi göndərmədən öncə müvafiq rəyin alınması ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (qurum) müraciət etməlidir.

33.9. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bitki mühafizə vasitələrinə və aqrokimyəvi maddələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən risklərin qiymətləndirilməsi nəticələri əsasında Azərbaycan Respublikasının ərazisinə bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı qaydasına uyğun olaraq dövlət nəzarəti tədbirləri həyata keçirilir.

33.10. Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin idxalına dövlət nəzarəti sərhəd keçid məntəqələrinə yaxın ərazilərdə yaradılmış fitosanitar nəzarəti məntəqələrində və ya idxalatçının məhsullarının saxlanc yerlərində həyata keçirilir.

33.11. Gömrük orqanı tərəfindən idxal olunmuş bitki mühafizə vasitələrinə və aqrokimyəvi maddələrə “Yaşıl dəhliz” və digər buraxılış sistemlərini tətbiq etmək məqsədilə məhsulların idxalatçılarının risk qruplaşdırılması aparılarkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) həmin idxalatçılara dair təqdim etdiyi risk informasiyası da nəzərə alınır.

33.12. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr üzərində fitosanitar nəzarəti tədbirləri aşağıdakılardan ibarətdir:

34.12.1. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə icazə verilməsi üçün əsas olan və idxal olunmuş məhsul partiyasını müşayiət edən bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı qaydası ilə müəyyən olunan sənədlərin mövcudluğunun və düzgünlüyünün yoxlanılması (bundan sonra - sənəd nəzarəti);

34.12.2. idxal olunmuş bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin partiyasının tərkibinin, etiketinin (mövcud olduqda), daşındığı nəqliyyat vasitəsinin həmin məhsula verilən sənədlərdə göstərilən məlumatlarla eyniliyinin və uyğunluğunun yoxlanılması (bundan sonra – eynilik nəzarəti);

34.12.3. idxal olunmuş bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrə fitosanitar baxışın keçirilməsi, yükü açaraq məhsuldan nümunənin götürülməsi və sınağının aparılması, onu daşıyan nəqliyyat vasitəsinin və bu Qanuna uyğun olaraq müəyyən edilmiş digər göstəricilərin yoxlanması (bundan sonra - fiziki nəzarət).

33.13. Sənəd nəzarəti Azərbaycan Respublikasının ərazisinə gətirilmiş bitki mühafizə vasitələrinə və aqrokimyəvi maddələrə, eynilik nəzarəti və fiziki nəzarət isə məhsulun risk səviyyəsindən asılı olaraq digər məhsullara şamil edilir.

33.14. Fiziki nəzarət çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən götürülən məhsul nümunələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında tədqiqi (sınağı) aparıldığı halda, həmin tədqiq (sınaq) üçün məhsulun idxalına cavabdeh subyektlərdən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş xidmət haqqı tutulur.

33.15. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr üzərində həyata keçirilən sənəd, eynilik və fiziki nəzarət tədbirləri nəticəsində hər hansı uyğunsuzluq aşkarlanmadıqda, müvafiq icra

hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) idxal sağlamlıq aktı tərtib edir və məhsul üzərində sərəncam vermək üçün idxalatçıya təqdim edir.

33.16. İdxal sağlamlıq aktının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

33.17. Aparılan nəzarət tədbirləri nəticəsində Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr bu Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə cavab vermədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin məhsulların utilizasiyası, Azərbaycan Respublikasının ərazisinin hüdudlarından kənara çıxarılması barədə idxalatçıya və ya onun səlahiyyətli nümayəndəsinə, habelə gömrük orqanına real vaxt rejimində kağız və ya elektron formada məlumat verilir.

33.18. Bu Qanunun 33.17-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisinin hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş bitki mühafizə vasitələri və aqrokimyəvi maddələr 10 (on) gün müddətində idxalatçı tərəfindən Azərbaycan Respublikasının ərazisinin hüdudlarından kənara çıxarılmalıdır. Bununla bağlı yaranan xərclər idxalatçı tərəfindən ödənilir.

33.19. Azərbaycan Respublikasının ərazisinə bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

## 8-ci fəsil

## Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istifadəsinə dair tələblər

### Maddə 34. Bitki mühafizə vasitələrinin peşəkar istifadəçiləri, satıcıları və bitki mühafizəsi üzrə məsləhətçilər üçün tələblər

34.1. Bitki mühafizə vasitələrinin peşəkar istifadəçiləri, satıcıları, həmçinin bitki mühafizəsi üzrə məsləhətçilər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən mövzular üzrə təlimlərdən keçməlidirlər (bu sahədə ali təhsilə malik olan şəxslər istisna olmaqla).

34.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bitki mühafizəsi sahəsində təşkil olunmuş imtahanlardan uğurla keçmiş bitkiçilik subyektlərinin əməkdaşı olan bitki mühafizə vasitələrinin peşəkar istifadəçilərinə sertifikat verilir.

34.3. Peşəkar istifadə üçün nəzərdə tutulmuş bitki mühafizə vasitələrindən yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş sertifikata malik istifadəçilər istifadə edə bilərlər.

34.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bitki mühafizə vasitələrinin peşəkar tətbiqi zamanı istifadəsinə yol verilən avadanlıqların və texniki vasitələrin, habelə istifadə üsullarının siyahısı təsdiq edilir.

34.5. Peşəkar istifadə üçün nəzərdə tutulmuş bitki mühafizə vasitələrinin tətbiqində istifadə olunan avadanlıqlar və texniki vasitələr fitosanitar norma və qaydalarla müəyyən edilmiş tələblərə cavab verməlidir.

34.6. Peşəkar istifadəçilərin bitki mühafizə vasitələrindən istifadə zamanı vəzifələri aşağıdakılardır:

34.6.1. bitki mühafizə vasitələrinin saxlanması, daşınması, istifadəsi, tətbiqi zamanı, həmçinin zərərli orqanizmlərə qarşı mübarizə dövründə müvafiq normativ hüquqi aktların tələblərinə əməl etmək;

34.6.2. bitki mühafizə vasitələrindən etiket məlumatlarına, istifadə təlimatlarına, bitkilərin mühafizəsinin təşkili prinsiplərinə, habelə zərərli orqanizmlərə qarşı mübarizənin prinsip və tələblərinə uyğun şəkildə istifadə etmək;

34.6.3. zərərli orqanizmlərlə mübarizə sahəsində inteqrir mübarizə tədbirlərindən istifadəyə üstünlük vermək, bitki mühafizə vasitələrindən son həll yolu kimi istifadə etmək;

34.6.4. istifadə olunan bitki mühafizə vasitələrinin zərərli orqanizmlərin məhv edilməsi baxımından səmərəliliyini izləmək, zərərli orqanizmlərdə rezistentliyin yaranması ilə bağlı müşahidələr aparmaq və sonrakı istifadələr zamanı bu amili nəzərə almaq;

34.6.5. qrunt və səth sularının mühafizə zonalarına dair tələbləri, sanitar-mühafizə zonalarının qorunmasını, həmçinin ətraf mühitin mühafizəsini tənzimləyən normativ hüquqi aktların tələblərini yerinə yetirmək;

34.6.6. cavabdeh olduqları təsərrüfatlarda həyata keçirilən zərərli orqanizmlərlə mübarizə və bitki mühafizə vasitələrindən istifadə tədbirlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada və qaydada uçotunu aparmaq və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dövri (ayda 1 dəfə olmaqla) hesabat vermək;

34.6.7. bitki mühafizə vasitələrinin etiketində göstərilən təhlükəsizlik xəbərdarlıqlarına və tələblərinə riayət etmək;

34.6.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən siyahısı təsdiq edilmiş, istifadəsinə yol verilən texniki vasitələr və avadanlıqlardan istifadə etmək və həmin vasitələrin dövri kalibrasiyasını təmin etmək.

34.7. Peşəkar istifadə üçün nəzərdə tutulmuş bitki mühafizə vasitələrinin istifadəsinə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

34.8. Peşəkar istifadə üçün nəzərdə tutulan bitki mühafizə vasitələrinin qeyri-peşəkar istifadəçiləri tərəfindən istifadəsi qadağandır.

34.9. Qeyri-peşəkar istifadəçilər onlar tərəfindən istifadəsinə icazə verilən bitki mühafizə vasitələrini etiketlərində göstərilən tələblərə və müvafiq normativ hüquqi aktların tələblərinə uyğun istifadə etməli və saxlamalıdır.

34.10. Bitki mühafizə vasitəsi üzrə məsləhətçilərin vəzifələri aşağıdakılardır:

34.10.1. bu Qanunun 34.1-ci maddələsinə uyğun olaraq təlimlərdən keçmək;

34.10.2. zərərli orqanizmlərə qarşı inteqrir mübarizə tədbirlərindən istifadəyə üstünlük vermək, bu mübarizə tədbirlərinin səmərəli tətbiqi ilə bağlı bitki mühafizə vasitələrinin peşəkar istifadəçilərini məlumatlandırmaq, onları buna təşviq etmək;

34.10.3. peşəkar istifadə üçün nəzərdə tutulmuş bitki mühafizə vasitələrinin daşınması, saxlanması və istifadəsinə dair tələblər, habelə bitkilərə, əhalinin sağlamlığına və ətraf mühitə təsirləri, eləcə də bitki mühafizə vasitələrinin etiketində verilən təhlükəsizlik xəbərdarlıqları barədə peşəkar istifadəçiləri məlumatlandırmaq, onlara bu barədə məsləhətlər vermək;

34.10.4. istifadə olunan bitki mühafizə vasitələrinin peşəkar istifadəçilərlə birlikdə səmərəliliyini təhlil etmək, zərərli orqanizmlərin rezistentliyinin yaranması ilə bağlı müşahidələr aparmaq və öz məsləhətlərində bu amili nəzərə almaq.

**Maddə 35. Zərərli orqanizmlərə qarşı inteqrir mübarizə tədbirlərindən istifadə**

35.1. İlkin istehsalla məşğul olan bitkiçilik subyektləri, habelə peşəkar istifadəçilər və məsləhətçilər zərərli orqanizmlərlə mübarizə zamanı inteqrir mübarizə üsullarının tətbiqinə üstünlük verməlidirlər.

35.2. İnteqrir mübarizə tədbirlərinə aşağıdakılar daxildir:

35.2.1. təsərrüfatda hər hansı zərərli orqanizm yayıldıqda həmin zərərli orqanizmin sahib bitkisi olmayan digər bitki növlərinin əkilməsi;

35.2.2. zərərli orqanizmin yayılmasını məhdudlaşdıran müvafiq becərmə üsullarından istifadə edilməsi (konservativ əkin, budama və birbaşa əkin);

35.2.3. zərərli orqanizmlərə davamlı və rezistent əkin və səpin materiallarından istifadə edilməsi;

35.2.4. qabaqcıl əkinçilik təcrübəsindən (optimal gübrələmə, əhəngləmə və suvarma/drenaj və s.) istifadə edilməsi;

35.2.5. təsərrüfatda zərərli orqanizmlərin yayılmasının qarşısının alınması üçün zəruri olan sanitar-gigiyenik tədbirlərin həyata keçirilməsi;

35.2.6. əkin sahəsinin bir və ya bir neçə vegetasiya dövrü ərzində əkin və səpin aparmadan boş saxlanılması;

35.2.7. çiçəkli bitkilərin yetişdirilməsi;

35.2.8. alaq otlarına qarşı aqrotexniki və ya mexaniki üsullarla mübarizə aparılması;

35.2.9. zərərli orqanizmlərlə mübarizə üçün ilk növbədə canlı faydalı orqanizmlərdən və feromon tutuculardan istifadəyə üstünlük verilməsi.

35.3. Bitkiçilik subyektləri zərərli orqanizmlərin yayılmasını vaxtında aşkarlamaq və qarşısını almaq üçün öz təsərrüfatlarında dövri araşdırmalar aparmalı, inteqrir mübarizə tədbirlərinin vaxtında tətbiqini təmin etməlidirlər.

35.4. İnteqrir mübarizə tədbirlərinin tətbiqi istənilən səmərəni vermədikdə və zərərli orqanizmin yayılmasının qarşısını almaq mümkün olmadıqda, bitkiçilik subyektləri fitosanitar norma və qaydalarına və istifadə reqlamentlərinə əməl etməklə kimyəvi tərkibli bitki mühafizə vasitələrindən istifadə etməlidir.

35.5. İnteqrir mübarizə tədbirlərinin tətbiqinə dair tələblər fitosanitar norma və qaydalarla müəyyən edilir.

**Maddə 36. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istifadəsinə dair tələblər**

36.1. Saxta və Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmamış bitki mühafizə vasitəsindən və aqrokimyəvi maddələrdən (bu Qanunun 28.23-cü, 29.16-cı maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla ) istifadə etmək qadağandır.

36.2. Peşəkar istifadə üçün nəzərdə tutulmuş bitki mühafizə vasitələrindən təhsil müəssisələrinin ərazisində, insanların olduğu və ya ola biləcəyi qapalı məkanlarda, içməli su mənbələrində, fərdi yaşayış evlərində və səhiyyə müəssisələrinin ərazisində istifadə olunması qadağandır.

36.3. Mühafizə olunan zonalarda bitki mühafizə vasitələrindən istifadə olunmasına dair tətbiq olunan məhdudiyyətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

36.4. Bitki mühafizə vasitələrinin tətbiq edildiyi sahələrə etiketdə göstərilən gözləmə intervalları keçdikdən sonra daxil olunmalıdır.

36.5. Drenaj arxlarında və onların bilavasitə kənarlarında, çoxillik otların mühafizə zonasında bitki mühafizə vasitələrinin istifadəsi qadağandır.

36.6. Bitki mühafizə vasitələrinin tətbiqi zamanı istifadə reqlamentlərində göstərilən radiusda insanların və heyvanların mövcud olmadığı yoxlanmalı və yalnız bundan sonra istifadə edilməlidir.

36.7. Bitki mühafizə vasitələrinin tətbiqi yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən siyahısı təsdiq edilmiş və istifadəsinə yol verilən texniki vasitələr və avadanlıqlarla həyata keçirilməlidir.

36.8. Bitki mühafizə vasitələrinin aviasiya ilə səpələnməsi, aşağıdakı hallar istisna olmaqla, qadağan olunur:

36.8.1. aviasiya ilə səpələnmənin digər tətbiq üsulları ilə müqayisədə əhalinin sağlamlığına, ətraf mühitə daha az mənfi təsir göstərdiyi sübut olunduqda;

36.8.2. Azərbaycan Respublikasında qeydiyyata alınmış bitki mühafizə vasitələrinin aviasiya ilə səpələnməsinə risklərin qiymətləndirilməsi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verildikdə.

36.9. Aviasiya ilə səpələnməsi üçün icazə verilmiş bitki mühafizə vasitələrinin etiketində risk idarəetmə tədbirləri göstərilməlidir.

36.10. Bitki mühafizə vasitələrinin yaşayış zonalarında aviasiya ilə səpələnməsi qadağan olunur.

36.11. Aqrokimyəvi maddələrin istifadəsi zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

36.11.1. aqrokimyəvi maddələr onların istifadə təlimatında göstərilən miqdarda tətbiq olunmalıdır;

36.11.2. aqrokimyəvi maddələr torpağın makro və mikronutrient ehtiyacları qiymətləndirilməklə tətbiq olunmalı və torpaqların lazımsız çirklənməsinə yol verilməməlidir.

36.12. Qeydiyyat şəhadətnaməsinin etibarlılıq müddətinin başa çatmasına 3 ay qalmış bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin təkrar qeydiyyatı üçün müraciət oluna bilər.

36.13. Təkrar qeydiyyat üçün müraciət olunmadığı halda qeydiyyat müddətinin başa çatma tarixindən 2 ay öncə sifariş edilmiş bitki mühafizə vasitələrinin qeydiyyat müddətinin başa çatma tarixindən etibarən 3 ay ərzində idxalına, mövcud ehtiyatların isə istifadə müddəti bitənə qədər dövriyyəsinə icazə verilir.

36.14. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində fəaliyyət göstərən laboratoriyada aparılmış sınaqların müsbət nəticələri əsasında istifadə müddəti başa çatmış bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istifadəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 12 aydan çox olmayaraq uzadıla bilər.

**Maddə 37. Pestisidlərin ehtiyatının yaradılması və saxlanması**

37.1. Pestisidlərin ehtiyatı, karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin kütləvi yayılması hallarında istifadə edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına yaradılır.

37.2. Pestisidlərin növlər üzrə illik ehtiyat planı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

37.3. Pestisidlərin ehtiyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılır və karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərin kütləvi yayılması hallarında istifadə edilir.

37.4. Pestisidlərin ehtiyatı müntəzəm olaraq təzələnir və istifadəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nəzarəti altında həyata keçirilir.

**Maddə 38. Pestisidlərin və gübrələrin qalıq miqdarına dövlət nəzarəti**

38.1. Bütün növ bitki, bitkiçilik məhsullarında və torpaqda bitki mühafizə vasitələrinin, aqrokimyəvi maddələrin və onların birləşmələrinin qalıq miqdarına dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

38.2. Məhsulun tərkibində bitki mühafizə vasitələrinin, aqrokimyəvi maddələrin və onların birləşmələrinin qalıq miqdarı yol verilən həddən artıq olduqda, onların satışına icazə verilmir və bu məhsul “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda müəyyən olunmuş qaydada dövriyyədən çıxarılır, utilizasiya və ya məhv edilir.

38.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən torpaqlardan götürülmüş nümunələrin laborator sınağı (tədqiq) nəticəsində bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qalıq miqdarının yüksək olması müəyyən edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə həmin torpaqda müəyyən müddətə qida əldə edilən bitkilərin əkini dayandırılır. Müəyyən edilən müddət başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) torpaqdan təkrar nümunələr götürərək laboratoriyada tədqiqini (sınağını) həyata keçirir və bitki mühafizə vasitələrinin, aqrokimyəvi maddələrin və onların birləşmələrinin qalıq miqdarı yol verilən hədlər daxilində olduqda torpaqda qida əldə edilən bitkilərin əkininə icazə verir, əks halda isə torpaqda qalıq miqdarının azaldılması ilə bağlı istifadəsi məqsədəuyğun hesab edilən üsullara dair bitkiçilik subyektlərinə yazılı tövsiyələr verir.

38.4. Bitki və bitkiçilik məhsullarında bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qalıq miqdarının yol verilən hədləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

38.5. Bitkiçilik subyektləri cavabdeh olduqları təsərrüfatlarda əldə olunan bitki və bitkiçilik məhsullarında bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qalıq miqdarının yol verilən hədlərdə olmasını təmin etmək üçün istifadə reqlamentlərinə ciddi əməl edilməsini, habelə istifadə reqlamentlərində müəyyən edilən məhsulun yığılması ilə bağlı vaxt intervallarının gözlənilməsini təmin etməlidirlər.

38.6. Sahələrdə becərilən bitkilərdə bitki mühafizə vasitələrinin, aqrokimyəvi maddələrin və onların birləşmələrinin qalıq miqdarı yığımdan öncə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tədqiq olunur və normadan çox olduğu müəyyən edildikdə, məhsulun yığımının müəyyən müddətə qədər dayandırılması barədə qərar qəbul edilir. Müəyyən edilən müddət başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) məhsuldan təkrar nümunələr götürərək laboratoriyada tədqiqini (sınağını) həyata keçirir və bitki mühafizə vasitələrinin, aqrokimyəvi maddələrin və onların birləşmələrinin qalıq miqdarı yol verilən hədlər daxilində olduqda məhsulun yığımına icazə verir.

**Maddə 39. İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş bitki mühafizə vasitələrinin yığılması, utilizasiyası və ya məhv edilməsi**

39.1. İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş bitki mühafizə vasitələri, onların qabları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada onların sahibindən geri alınaraq utilizasiya və ya məhv edilir.

39.2. İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş bitki mühafizə vasitələrinin, onların qablarının daşınaraq bu məqsəd üçün yaradılmış poliqonlara yığılması və saxlanması ilə bağlı yaranan xərclər onların sahibləri tərəfindən ödənilir.

39.3. İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş bitki mühafizə vasitələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində bu məqsəd üçün yaradılmış poliqonlara daşınaraq saxlanılır və ekoloji, toksikoloji, yanğın təhlükəsizliyi qaydaları gözlənilməklə məhv edilir.

## 9-cu fəsil

## Fitosanitar xidmətləri

### Maddə 40. Fitosanitar xidmətlərinin təşkili

40.1.Azərbaycan Respublikasında fitosanitar xidmətlərinə aşağıdakılar daxildir:

40.1.1. zərərli orqanizmlərlə sirayətlənmiş karantin nəzarətində olan materialların və obyektlərin zərərsizləşdirilməsi;

40.1.2. bitkiçilik təsərrüfatlarına zərərli orqanizmlərlə mübarizə sahəsində məsləhət və təlim xidmətlərinin göstərilməsi;

40.1.3. dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, hüquqi və fiziki şəxslərə ) məxsus bitkiçilik təsərrüfatlarında, kənd təsərrüfatı və meşə sahələrində, o cümlədən şəxsi bağ sahələrində, kənd təsərrüfatına aid olmayan torpaqlarda fitosanitar müşahidələrin aparılması, zərərli orqanizmlərin təyini və əmələgəlmə səbəblərinin, onların sirayətlənmə arealının və dərəcəsinin, aparılacaq mübarizə üsullarının və həcminin müəyyənləşdirilməsi;

40.1.4. zərərli orqanizmlərin mövcudluğunun erkən aşkarlanması və qarşısının alınması, onların vaxtında və səmərəli şəkildə məhv edilməsi məqsədilə müşahidələrin aparılması və profilaktik mübarizə tədbirlərinin həyata keçirilməsi;

40.1.5. inteqrir mübarizə tədbirləri sistemlərinin hazırlanması və tətbiqinin təşviqi;

40.1.6. bioloji mübarizə tədbirlərinin elmi-praktiki əsaslarla həyata keçirilməsi, bioloji mübarizə sahəsində istehsalçılara metodiki dəstəyin göstərilməsi;

40.1.7. fitosanitar norma və qaydalarda, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarlarında nəzərdə tutulduğu hallarda idxal olunmuş və ixracı nəzərdə tutulan karantin nəzarətində olan materialların profilaktik olaraq fumiqasiya və digər üsullarla zərərsizləşdirilməsi;

40.1.8. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin reqlamentlərinə uyğun və təhlükəsiz istifadəsi, saxlanılması, daşınması və zərərsizləşdirilməsi sahəsində xidmətlərin göstərilməsi;

40.1.9. bitkiçilik subyektlərinin, onların peşəkar istifadəçilərinin karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlər və onlarla səmərəli mübarizə üsulları barəsində maarifləndirilməsi, bu məqsədlə maarifləndirici çap materiallarının hazırlanması və paylanması;

40.1.10. dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına ölkə ərazisində istifadə müddəti bitmiş və istifadəyə yararsız bitki mühafizə vasitələrinin xüsusi ayrılmış yerlərdə zərərsizləşdirilməsi və ya məhv edilməsinin təşkil edilməsi;

40.1.11. dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına fitosanitar nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarları əsasında dövlət orqanlarına (qurumlarına), bələdiyyə, hüquqi və fiziki şəxslərə, o cümlədən vətəndaşlara, məxsus ərazilərdə, yaşayış yerlərində, yol kənarlarında, şəxsi bağlarda karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərlə mübarizə tədbirlərinin həyata keçirilməsi;

40.1.12. dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına karantin elan olunmuş ərazilərdə yoluxmuş bitki və bitkiçilik məhsulları və digər karantin nəzarətində olan materialların zərərli orqanizmə sirayətlənmə və yaratdığı təhlükəlilik dərəcəsi nəzərə alınmaqla zərərsizləşdirməsi, utilizasiyası və ya məhv edilməsi;

40.1.13. dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına Milli Monitorinq Planı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən fitosanitar monitorinqlərin və ya onun müraciəti əsasında fitosanitar müşahidələrin aparılması;

40.1.14. dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına rəsmi təsdiq edilmiş karantin tətbiq edilən zərərli orqanizmlərin yayılma arealının dəqiqləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında fitosanitar müşahidələrin aparılması.

40.2. Bu Qanunla müəyyən edilmiş fitosanitar xidmətlər dövlət və qeyri-dövlət fitosanitar xidmətləri subyektləri tərəfindən həyata keçirilir.

40.3. Bu Qanunun 41.1.10 - 41.1.14-cü maddələrində göstərilən xidmətlər yalnız dövlət fitosanitar xidmətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

40.4. Dövlət və qeyri-dövlət fitosanitar xidmət subyektləri fitosanitar nəzarəti funksiyalarını yerinə yetirə bilməzlər.

40.5. Dövlət və qeyri-dövlət fitosanitar xidmət subyektləri həyata keçirdikləri fitosanitar xidmətlər haqqında fitosanitar nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rüblük və illik hesabat verməlidirlər.

40.6. Qeyri-dövlət fitosanitar xidmətlərini həyata keçirmək istəyən subyektlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydiyyata alınır Bitki Sağlamlığı Reyestrinə daxil edilir. Reyestr axtarış aparan bütün şəxslər üçün açıqdır.

40.7. Qeyri-dövlət fitosanitar xidmət subyektlərinin qeydiyyata alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

40.8. Fitosanitar nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət və qeyri-dövlət fitosanitar xidmət subyektlərinin həyata keçirdikləri fitosanitar xidmətlərə dövlət nəzarəti məqsədilə dövrü olaraq həmin subyektlərdən hesabatlar alaraq təhlil edir, aparılan fitosanitar müşahidələrin doğruluğunun və əhatəliliyinin qiymətləndirilməsi məqsədilə müşahidə aparılan ərazilərdə fitosanitar monitorinqlər aparır, kadrların peşəkarlığını qiymətləndirir, fumiqasiya, dezinfeksiya, dezinseksiya və bu Qanunla müəyyən edilmiş digər zərərsizləşdirmə proseslərində iştirak edir və yol verilən nöqsanlarla bağlı yazılı tələblərini bildirir, habelə bu Qanunla müəyyən edilmiş dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına həyata keçirilən tədbirlərin vaxtında, səmərəli və nəticəyönümlü aparılmasına nəzarəti həyata keçirir. Dövlət və qeyri-dövlət fitosanitar xidmət subyektlərinin həyata keçirdikləri fitosanitar xidmətlərə dövlət nəzarətinin aparılması qaydası müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

40.9. Qeyri-dövlət fitosanitar xidməti subyektlərinin vəzifələri aşağıdakılardır:

40.9.1. bitki sağlamlığı haqqında qanunvericiliyə riayət etmək və müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) qeydiyyatdan keçmək;

40.9.2. əməkdaşı olan bitki mühafizə vasitələrinin məsləhətçilərinin bu Qanunla nəzərdə tutulmuş qaydada təlimlərə cəlb edilməsini təmin etmək;

40.9.3. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin tətbiqinə dair fitosanitar norma və qaydaların tələblərini yerinə yetirmək;

40.9.4. bitki və bitkiçilik məhsullarının, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalı, idxalı, ixracı, təkrar ixracı, ölkə daxilində daşınması, saxlanması və satışı zamanı onların keyfiyyətinə və təhlükəsizliyinə dair tələblərə riayət etmək və buna görə məsuliyyət daşımaq;

40.9.5. istifadəyə yararsız bitki mühafizə vasitələrinin, onların qablarının qanunvericiliklə müəyyən edilmiş qaydada zərərsizləşdirilməsini və ya məhv edilməsini təmin etmək;

40.9.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarlarına əməl etmək;

40.9.7. xidmət göstərdikləri obyektlərdə tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlər aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək və onların yayılmasının qarşısını almaq üçün ilkin tədbirlər görmək;

40.9.8. fitosanitar tədbirlərin həyata keçirilməsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) lazımi kömək göstərmək və fitosanitar xidməti sahəsində həyata keçirdikləri işlər barədə müəyyən olunmuş qaydada məlumat vermək;

40.9.9. xidmət göstərdikləri obyektlərdə istehsal edilən bitki və bitkiçilik məhsullarının fitosanitar normalara uyğunluğunun və təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görmək;

40.9.10. qanunvericiliklə müəyyən edilmiş qaydada və formada bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin uçot və hesabatını aparmaq.

40.10. Qeyri-dövlət fitosanitar xidməti subyektlərinin hüquqları aşağıdakılardır:

40.10.1. bu Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərin yerinə yetirilməsi məqsədilə dövlət orqanlarından və qurumlarından metodiki köməklik və məsləhət almaq;

40.10.2. bu Qanuna uyğun olaraq müəyyən edilmiş qaydada fitosanitar norma və qaydaların işlənilib hazırlanmasında iştirak etmək;

40.10.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş fitosanitar tədbirlərinin nümunəvi uçot və hesabat sənədlərindən və blanklarından istifadə etmək;

40.10.4. öz xidmətlərini bitkiçilik subyektlərinə təklif etmək;

40.10.5. zərərli orqanimzlərlə mübarizəyə dair tövsiyə xarakterli metodiki təlimatlar hazırlamaq və istifadə etmək;

40.10.6. inzibati qaydada və məhkəməyə şikayət etmək.

### Maddə 41. Karantin nəzarətində olan materialların və obyektlərin zərərsizləşdirilməsi

41.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, Azərbaycan Respublikası ərazisinə idxal olunmuş Azərbaycan Respublikası ərazisindən ixrac və ya təkrar ixrac edilən və ya tranzitlə daşınan, o cümlədən Azərbaycan Respublikası ərazisində dövriyyəyə buraxılan karantin nəzarətində olan materiallarda karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda onlar fitosanitar nəzarəti məntəqələrində, yükün təyinat və ya istehsal, saxlanma yerlərində qanunvericilikdə nəzərdə tutulmuş qaydada zərərsizləşdirilir.

41.2. Karantin nəzarətində olan materialların daşınması üçün istifadə edilən nəqliyyat vasitələri məcburi qaydada təmizlənməli, karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlər aşkar edildikdə fitosanitar tələblərə uyğun olaraq zərərsizləşdirilməlidir.

41.3. Karantin nəzarətində olan materialların və obyektlərin zərərsizləşdirilməsi hüquqi və fiziki şəxslərlə bağlanan müqavilə əsasında və ya dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına həyata keçirilir.

41.4. Karantin nəzarətində olan materialların və obyektlərin zərərsizləşdirilməsi aşağıdakı üsullarla həyata keçirilir:

41.4.1. fumiqasiya;

41.4.2. istiliklə zərərsizləşdirmə;

41.4.3. soyuq mühitdə zərərsizləşdirmə;

41.4.4. radiasiya ilə zərərsizləşdirmə;

41.4.5. modifikasiya edilmiş atmosferdə zərərsizləşdirmə.

41.5. Zərərsizləşdirmə tədbirləri bu Qanunun və fitosanitar norma və qaydalarının tələblərinə uyğun həyata keçirilir.

**Maddə 42. Ağac əsaslı qablaşdırma materiallarının zərərsizləşdirilməsi və markalanması**

42.1. Ağac əsaslı qablaşdırma materialı məhsulu fitosanitar norma və qaydaların tələblərinə uyğun istehsal edilməli və markalanmalıdır.

42.2. Ağac əsaslı qablaşdırma materialına marka vurmaq istəyən fiziki və hüquqi şəxslər aşağıdakı şərtləri yerinə yetirməlidir:

42.2.1. bu Qanuna uyğun olaraq qeydiyyata alınmalı;

42.2.2. ağacın emalı və markanın ağac əsaslı qablaşdırma materialına tətbiqi ilə bağlı fitosanitar norma və qaydaların tələblərinə dair zəruri biliklərə sahib şəxsi heyətə malik olmalı;

42.2.3. zərərsizləşdirmə aparıldıqda, fitosanitar norma və qaydaların tələblərinə uyğun olaraq həmin zərərsizləşdirməni həyata keçirmək üçün müvafiq qurğu və avadanlıqlardan və qeydiyyatdan keçmiş pestisidlərdən istifadə etməli.

42.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ağac əsaslı qablaşdırma materiallarının bu Qanunda və fitosanitar norma və qaydalarda müəyyən edilən tələblərə uyğun zərərsizləşdirildiyini və markalandığını yoxlamaq məqsədilə icazə verilmiş hüquqi və fiziki şəxslərə dövri nəzarət tədbirləri həyata keçirilir.

## 10-cu fəsil

## Yekun müddəalar

**Maddə 43. Bitki sağlamlığı sahəsində maliyyələşdirmə**

43.1. Bitki sağlamlığı sahəsində tədbirlərin maliyyə mənbəyi dövlət büdcəsindən, büdcədənkənar mənbələrdən ayrılan, fiziki və hüquqi şəxslərə göstərilən fitosanitar xidmətlərinə görə ödənilən vəsaitlər, könüllü ödənişlər, ianələr, donor təşkilatların qrantları, texniki maliyyə yardımları və qanunla qadağan edilməmiş digər təminatlardan ibarətdir.

43.2. Bitki sağlamlığı sahəsində aşağıdakı xərclər Azərbaycan Respublikasının dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin hesabına maliyyələşdirilir:

43.2.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurum)və onun tabeliyində olan təşkilatların saxlanılması xərcləri və maddi-texniki təminatı;

43.2.2. bu Qanuna, sahibkarlara münasibətdə isə həmçinin “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bitki mühafizəsi və karantini sahəsində tədbirlərin həyata keçirilməsi;

43.2.3. pestisidlərin ehtiyatının yaradılması və saxlanması;
43.2.4. bitki mühafizəsi sahəsində elmi-tədqiqat işlərinin aparılması, mütəxəssislərin hazırlanması və əlavə təhsili;
43.2.5. məqsədli dövlət və regional proqramlar əsasında fitosanitar və aqrokimyəvi tədbirlərin aparılması;
43.2.6. ölkə ərazisində istifadə müddəti bitmiş və istifadəyə yararsız bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin aşkarlanması və xüsusi ayrılmış yerlərdə zərərsizləşdirilməsi;
43.2.7. dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, hüquqi və fiziki şəxslərə, o cümlədən vətəndaşlara məxsus ərazilərdə, yaşayış yerlərində, yol kənarlarında, bağlarda karantin tətbiq edilən və xüsusi təhlükəli zərərli orqanizmlərlə mübarizə tədbirlərinin həyata keçirilməsi;
43.2.8. karantin elan olunmuş ərazilərdə sirayətlənmiş bitki və bitkiçilik məhsullarının və digər karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi, təkrar emalı və məhv edilməsi;
43.2.9. Milli Monitorinq Planı əsasında ölkə üzrə xüsusi monitorinqlərin və ya fitosanitar müşahidələrin aparılması;
43.2.10. rəsmi təsdiq edilmiş karantin tətbiq edilən zərərli orqanizmlərin yayılma arealının dəqiqləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında xüsusi monitorinqlərin aparılması;

43.2.11. fitosanitar nəzarəti sahəsində Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi;
43.2.12. qanunvericilikdə nəzərdə tutulmuş digər fitosanitar tədbirlər.
43.3. Bitki sağlamlığı sahəsində aşağıdakı nəzarət tədbirləri və xidmətləri fiziki və hüquqi şəxslərin vəsaiti, könüllü ödənişlər və donor təşkilatların texniki-maliyyə yardımı hesabına maliyyələşdirilir:
43.3.1. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin dövlət sınağı, qeydiyyatı və ekspertizası;
43.3.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi;
43.3.3. fitosanitar sertifikatlarının, idxal karantin rəyi, vahid uçot və hesabat formalarının və digər fitosanitar sənədlərin verilməsi;
43.3.4. fiziki və hüquqi şəxslərin müraciətləri əsasında və nəzarət tədbirləri zamanı fitosanitar baxışın, müayinəsinin və ekspertizasının aparılması;
43.3.5. bitki və bitkiçilik məhsullarında, torpaqda və suda, bitki mühafizə vasitələrində toksikoloji analizlərin aparılması;
43.3.6. örtülü sahələrdə tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərə qarşı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilmiş bitki mühafizə tədbirlərinin aparılması;
43.3.7. kütləvi yayılma halları istisna olmaqla, ayrı-ayrı təsərrüfatlarda rast gəlindikdə tənzimlənən və xüsusi təhlükəli zərərli orqanizmlərə qarşı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilmiş bitki mühafizə tədbirlərinin aparılması;
43.3.8. qanunvericilikdə nəzərdə tutulan digər xidmətlər.
43.4. bitki mühafizə vasitələrinə və aqrokimyəvi maddələrə qeydiyyat şəhadətnamələrininvə fitosanitar sertifikatlarının verilməsi üçün dövlət rüsumu ödənilir.
43.5. Bu Qanunun 43.3-cü maddəsində nəzərdə tutulmuş tədbirlərə və xidmətlərə (“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə

tutulanlar istisna olmaqla) görə alınan xidmət haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 44. Bitki sağlamlığı haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyətə səbəb olur.

**Maddə 45. Bitki sağlamlığına dair bu Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar**

45.1. Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq olunan cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

45.2. Bu Qanunun 45.1-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 46. Keçid müddəalar**

46.1. Bu Qanun qüvvəyə minənədək qida təhlükəsizliyi qeydiyyatına alınmış bitkiçilik subyektlərinin və onların obyektlərinin təkrar qeydiyyatı tələb olunmur (qeydiyyat məlumatlarında əlavə və düzəlişlər istisna olmaqla).

46.2. Bu Qanun qüvvəyə minənədək dövlət qeydiyyatına alınmış bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin qeydiyyatı öz qüvvəsini saxlayır.

46.3. Bu Qanun qüvvəyə minənədək dövlət qeydiyyatına alınmış bitki mühafizə vasitələrinin tərkibində bu Qanunun 28.6-cı maddəsinə əsasən təsdiq edilmiş siyahıda mövcud olmayan aktiv maddələr, sinergistlər, neytrallaşdırıcı vasitələr (antidotlar) olduqda onların təkrar qeydiyyatı həyata keçirilir, tərkibində bu Qanunun 28.6-cı maddəsinə əsasən təsdiq edilmiş siyahıda olan istifadəsi qadağan edilmiş aktiv maddələr və koformulyantlar olduqda onların dövlət qeydiyyatı mərhələli şəkildə ləğv edilir.

46.4. Bu Qanunun 19.2-ci və 33.10-cu maddələrində nəzərdə tutulmuş fitosanitar nəzarəti məntəqələri formalaşana qədər sənəd nəzarəti, eynilik nəzarəti və fiziki nəzarət sərhəd keçid məntəqələrinə yaxın ərazilərdə və ya idxalatçıların məhsullarının saxlanc yerlərində həyata keçirilir.

46.5. Bu Qanunun 28.22-ci və 29.15-ci maddələri Qanun qüvvəyə minənədək qeydiyyata alınmış bitki mühafizə vasitələrinə və aqrokimyəvi maddələrə şamil edilmir.

46.6. Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

46.7. Bu Qanun qüvvəyə mindiyi gündən "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının 2006-cı il 12 may tarixli 102-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 655; 2007, № 6, maddə 595; 2009, № 12, maddələr 948, 954, 968; 2011, № 2, maddə 71; 2014, № 10,

maddə 1150; 2016, № 6, maddə 1013; 2017, № 5, maddə 713; 2018, № 4, maddə 641, № 12 (I kitab), maddə 2491) ləğv edilir.